

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Jurnalist Reyçel Avraham: "Ermənilər Qarabağdan heç kim silah gücü ilə çıxarmayıb"


Despite Call for Declaring 'New Genocide,' Armenian Colonialist Invaders Are Not Victims

7

№ 091 (7016)

23 may 2024-cü il.
Qiyməti 60 qəpik

# Azərbaycan-Belarus: etimada əsaslanan münasibətlər




2

**Prezident İlham Əliyev: "Belarus şirkətlərini Qarabağ və Şərqi Zəngəzur bölgələrinin bərpasında fəal iştirak etməyə dəvət etmişəm"**

# Yaşıl enerjinin qara sirri

Fasiləsiz artan qlobal tələbatı ödəməkdə alternativ enerjiyə tam güvənməyin riskli olduğunu göstərən aşkar əlamətlər və bəzi həlli çətin problemlər var



8

## Emoməli Rəhmon Azərbaycana dövlət səfərinə gəlib



7

## Uşaqlar və sosial təminat: bacarırıqmı?



13

## Sosial media və onun QURBANLARI



5

## Əli Kərimli siyasi dialoqdan niyə imtina edir?



14

## Tabor komandiri rüşvətə görə məhkəmə zalında həbs edildi



16

# Azərbaycan-Belarus: etimada əsaslanan münasibətlər

## Prezident İlham Əliyev: "Belarus şirkətlərini Qarabağ və Şərqi Zəngəzur bölgələrinin bərpasında fəal iştirak etməyə dəvət etmişəm"

Azərbaycanın milli maraqlar prinsipləri əsasında həyata keçirdiyi xarici siyasəti nəticəsində ölkəmizin müstəqillik təməlinin sütunları daha möhkəmlənib. Suverenliyini və ərazi bütövlüyünü təmin etmiş Azərbaycan bir çox dövlətlərlə yanaşı, Belarus Respublikası ilə də münasibətlərin daha da dərinləşməsi, yeni strateji səviyyəyə çatdırılması üçün böyük əhəmiyyət kəsb edən qərar, sənədlər qəbul edib ki, bu da dövlətlərarası əlaqələrin sürətlə inkişafına təkan verib. Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun ölkəmizə rəsmi səfəri və səfər çərçivəsində aparılan danışıqlar, keçirilən təkbətək və geniş tərkibdə görüşlər, imzalanan sənədlər dövlətlərarası mehriban dostluq əlaqələrinin olduğunu bir daha təsdiqləyir. Gələcəkdə qarşılıqlı fəaliyyət yolları müəyyənləşdirilib, münasibətlərin dinamik inkişafına nəzər salınıb. Azərbaycan Prezidenti İlham Əliyev mətbuata bəyanatla çıxışında bildirdiyi kimi, "Bu gün müzakirə etdiyimiz məsələlərin hamısı kifayət qədər konkret xarakter daşıyır. İlk növbədə, söhbət sənaye kooperasiyasından, Belarusda, Azərbaycanda birgə istehsalın təşkili və artıq bir çox illər öncə yaradılmış birgə istehsal potensialının artırılmasından gedir. Bu, ilk növbədə, maşınqayırmadır. Həmçinin hərbi-sənaye kompleksində, kənd təsərrüfatında, nəqliyyatda əlaqələrin inkişafı məsələləri, başqa sözlə desək, ölkələrimizin iqtisadiyyatının inkişafı üçün praktiki əhəmiyyət daşıyacaq məsələlər geniş şəkildə müzakirə olundu".








Səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun iştirakı ilə Azərbaycan-Belarus arasında müxtəlif sahələrdə əməkdaşlıq məqsədi ilə sənədlərin imzalanması mərasimi olub. Təbii ki, sənədlərin imzalanması dövlətlərarası müxtəlif sahələrdə əməkdaşlığın daha da dərinləşməsində mühüm rol oynayacaqdır.

Azərbaycan və Belarus arasında olan strateji əməkdaşlıq əlaqələri hər iki ölkənin perspektiv inkişafı baxımından, xüsusi əhəmiyyət kəsb edir. Bu əlaqələr, eyni zamanda, regionun tərəqqisi ilə bağlı yeni baxışlar formalaşdırır.

"Bu illər ərzində müxtəlif şəraitlərdə həmişə dəyərlərimizə - xeyirxahlığa, ləyaqətə, münasibətlərdə dürüstlüyə və nəticəyə hədəflənməyə sadiqliyimizi qoruyub saxlamışıq" - deyən Prezident bildirib ki, ölkələrimizin rəhbərləri arasında etimada əsaslanan münasibətlər təbii olaraq bütün digər dövlət qulluqçularına impuls verir ki, onlar, həmçinin öz aralarında ünsiyyət saxlasınlar, çalışsınlar, dostluq etsinlər, öz ölkələrinin rifahı və ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi naminə fəaliyyət göstərsinlər.

### "İNFRASTRUKTURU, YAŞAYIŞ SAHƏLƏRİNİ, İCTİMAİ BİNALARI, TARİXİ ABİDƏLƏRİ VƏ DİGƏRLƏRİNİ SIFIRDAN BƏRPA ETMƏK LAZIM GƏLİR"

44 günlük Vətən müharibəsində Azərbaycan tarixi ədaləti bərpa edərək, 30 ilə yaxın işğal altında olan torpaqları düşmən tapdağından azad etdi. Bu gün işğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür. İşğaldan azad olunan ölkəmizin inkişafı istiqamətində həyata keçirilən layihələr öz nəticəsini verir. İnkişaf və tərəqqi dövrünü yaşayan Azərbaycanın işğaldan azad olunan ərazilərində həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat ölkənin əsas inkişaf göstəriciləridir.

Azərbaycanın iqtisadi gücü işğaldan azad olunan ərazilərdə yeni həyatın başlanmasına imkan verir. Bu gün Azərbaycan torpaqlarını işğaldan azad etmiş və Zəfər qazanmış dövlət olaraq həmin ərailərdə abadlıq-quruculuq işlərinə başlayıb. "İşğal illərində hər şey dağıdılıb. İnfrastrukturu, yaşayış sahələrini, ictimai binaları, tarixi abidələri və digərlərini sıfırdan bərpa etmək lazım gəlir", - deyə Prezident bildirib. Cənab Prezident onu da bildirib ki, Belarus şirkətlərini Qarabağ və Şərqi Zəngəzur bölgələrinin bərpasında fəal iştirak etməyə dəvət etmişəm. Hazırda gördüyümüz və həyata keçirəcəyimiz işlərin miqyası çox genişdir.

### "BİZİM BİRİNCİ DƏRƏCƏLİ VƏZİFƏMİZ KEÇMİŞ MƏCBURİ KÖÇKÜNLƏRİ TİKİLƏCƏK DOĞMA EVLƏRİNƏ MÜMKÜN QƏDƏR TEZ QAYTARMAQDIR"

"Belarusun çox yaxşı şəhərsalma təcrübəsi, müasir texnologiyaları, aqroşəhərciklərin tikintisi təcrübəsi var", - deyə Azərbaycan Prezidenti mətbuata bəyanatında səsləndirib: "Əlbəttə, bizim birinci dərəcəli vəzifəmiz keçmiş məcburi köçkünləri tikiləcək doğma evlərinə mümkün qədər tez qaytarmaqdır. Həmçinin onları müvafiq işlə təmin etmək lazımdır ki, azad olunmuş ərazilərə qayıdanlar da yüksək əməkhaqqı olan işlərdə çalışsınlar".

Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko isə mətbuata bəyanatla çıxışında Azərbaycanın azad etdiyi ərazilərdə xüsusən aqrar torpaqlarda Belarus təcrübəsi üzrə aqroşəhərciklər və bütün infrastrukturu yaratmağa, iş yerləri açmağa, yəni, komplekslər tikməyə, həmçinin fermer təsərrüfatları yaratmağa hazır olduqlarını diqqətə çatdırıb. Onu da bildirib ki, işğaldan azad olunan torpaqlarımızda dost ölkə tərəfindən ilk növbədə, iş yerləri olan aqroşəhərcik tikiləcəkdir. "Biz orada sizin üçün evlər yaratmağa hazırıq. Belarusda taxta evlər təcrübəsi geniş yayılıb. Evi hissələrlə vaqonlarda gətiririk, bir həftə ərzində bünövrəsi üzərində tikib qurtarırıq. Biz Belarusda bu cür edirik. Əgər sizə uyğun gələrsə, biz tədarük edə və sizin dirçəldilən ərazilərdə belə evlər tikə bilərik. Bir sözlə, çox böyük planımız var. Biz işləməyə davam edəcəyik".

### FÜZULİNİN BAŞ PLANI İLƏ TANIŞLIQ

Azərbaycan Respublikasında dövlət səfərində olan Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mayın 17-də Füzuli rayonuna gəlib və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onu qarşılayıb. Belarus Prezidentinə Füzuli, Zəngilan və Laçın beynəlxalq hava limanları barədə məlumat verilib. Dövlət başçıları

Füzuli şəhərinin dağıdılmış yerlərinə baxıb və şəhərin Baş planı ilə tanış olublar.

İşğaldan azad olunan digər ərazilərimiz kimi, Füzuli rayonda da abadlıq-quruculuq işlərinə start verilib. Artıq Füzuli şəhərinin baş planı, kəndlərin inkişaf konsepsiyası hazırlanıb və birinci infrastruktur layihələri də məhz Füzulidə başlanıb.

Xatırlatmaq yerinə düşər ki, 2021-ci ilin yanvarında Azərbaycan Prezidenti Füzulidə beynəlxalq hava limanının tikintisi barədə Sərəncam verdi. Gələcək hava limanının təməlqoyma mərasimi həmən ilin yanvar ayının 14-də baş tutdu. Hava limanının uçuş zolağının inşasının ilin sonuna kimi tamamlanması planlaşdırılırsa da, artıq avqust ayında uçuşenmə zolağı hazır idi və ilk sınaq təyyarəsini qəbul etmişdi. Əlbəttə ki, tikinti getdiyi ərazi döyüş bölgəsi olduğundan, düşmən tərəfindən minalanmışdır. Bu amil də tikintinin sürət tempinə təsir göstərmişdir. Belə ki, tikinti ilə yanaşı, minalardan təmizləmə işi paralel aparılmışdır. Qısa bir zamanda Füzulidə beynəlxalq hava limanı istifadəyə verildi. Bu gün Füzuli quruculuq meydanına çevrilib.

Abadlaşan və daha da gözəlləşən Füzuli şəhəri köç karvanlarını qarşılayıb. Köçürülən ailələr Füzuli şəhərində yenidən tikilən evlərdə məskunlaşırlar. Füzuli abadlaşır və yenidən qurulur. Prezident İlham Əliyevin işğaldan azad olunan ərazilərimizə, eləcə də Füzuliyə səfərləri tarixi hadisələrlə yadda qalır. Dövlətyarlı kəndində "Ağıllı kənd"in təməlqoyma mərasimi, Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin təməlqoyma mərasimi, çoxmənzilli yaşayış məhəlləsinin təməlqoyma mərasimi və s. Füzulinin tezliklə abadlaşmasından xəbər verir. Füzuli şəhərində dövlət başçısı tərəfindən üçüncü yaşayış kompleksinin təməli qoyulub. Üçüncü yaşayış kompleksi çoxfunksiyalı zonada yerləşən iki ərazidə inşa olunacaq. Kompleksin inşası üçün 12 hektardan çox torpaq sahəsi ayrılıb. Burada tikiləcək 863 mənzildə 3022 nəfərin yaşaması nəzərdə tutulub. Mənzillərin 18-i birotaqlı, 276-sı ikiotaqlı, 370-i üçotaqlı, 199-u dördotaqlı olacaq. Binaların altında qeyri-yaşayış sahələri, eləcə də həyətdə istirahət meydançası, velosiped və yerüstü avtomobil dayanacaqları inşa ediləcək.

### QARABAĞIN TACI ŞUŞA YENİ QURUCULUQ DÖVRÜNDƏ

Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Şuşa şəhərinə səfər ediblər. Dövlət başçıları Şuşada birinci yaşayış kompleksində olublar. Burada görülən işlər şəhəri yeni həyatına qovuşdurur. Artıq Şuşada Heydər Əliyev Fondu tərəfindən Yuxarı Gövhər Ağa, Saatlı məscidləri, eləcə də Mehmandarovların malikanə kompleksi ərazisindəki məscid bərpa edilib və istifadəyə verilib.

Bir çox əlamətdar hadisələrə şahidlik edən Şuşamızda Otel-Konqres Mərkəzi Kompleksi fəaliyyətdədir. Erməni işğalı dövründə burada Azərbaycan Prezidentinin təbirincə desək, "şeytan yuvası" - "parlamentin" binasının tikintisi planlaşdırılırdı. Ancaq indi həmin yerdə beşulduzlu otel yerləşir. Səfər çərçivəsində prezidentlər Şuşada Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin işğal dövründə güllələbaran edilmiş heykəllərinə, eləcə də Şuşada Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzində "Heydər Əliyev və Qarabağ" sərgisinə baxıblar. Sərgidə Ulu Öndər Heydər Əliyevin Qarabağda sosial, iqtisadi, siyasi və mədəni inkişaf istiqamətindəki xidmətlərini əks etdirən nadir fotoşəkillər, sənədlər və videomateriallar nümayiş olunur.

Onu da qeyd edək ki, dövlət başçıları Şuşada Azərbaycan ilə Belarusun birgə istehsalı olan avtobusa və Belarus Prezidentinin hədiyyə etdiyi traktorlara da baxıblar. Dövlət başçılarına şəhərin Baş Planı təqdim olunub. Şuşa şəhərinin baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunması əsas götürülüb. Mədəniyyət paytaxtımızda həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulacaq və tezliklə keçmişdə olduğu kimi, Şuşa dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək.

***N.Bayramova***

## Rəsmi xronika

Azərbaycan Prezidenti İlham Əliyev Fərid Mirmufid oğlu Seyidovun Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri təyin edilməsi ilə bağlı Sərəncam imzalayıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş ”Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 11 oktyabr tarixli 1148 nömrəli Sərəncamı ilə təsdiq edilmiş ”Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında ali hərbi rütbəli vəzifələrin siyahısı”nda dəyişiklik edilməsi haqqında Sərəncam imzalayıb.

# Dünyanın idman paytaxtı - BAKI





Azərbaycanın dinamik inkişafı nəticəsində əldə olunan uğurlar onun bütün istiqamətləri üzrə modelini ortaya qoymasına səbəb olmuşdur. Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm nailiyyətlər qazanan ölkəmizin beynəlxalq miqyaslı yarışlara, festivallara, qlobal forumlara, konfranslara ev sahibliyi etməsi ölkəmizin elmə, təhsilə, mədəniyyətə, idmana və digər sahələrə olan diqqəti ilə yanaşı, bu və ya digər sahələrdə qazanmış olduğu uğur və nailiyyətlərin təsdiqidir. Paytaxtımızda NATO Parlament Assambleyasının seminarı, Bakı Beynəlxalq Humanitar, Gənclər siyasəti üzrə I Qlobal forumu, Caz Festivalı, ”Bakı Elm Festivalı-2014”, BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu kimi mühüm əhəmiyyət kəsb edən müxtəlif məzmunlu tədbirləri təşkil olunmasında Azərbaycanın qazandığı mövqeyi, ölkəmizin beynəlxalq çəkisi, yüksək imici səbəb olmuşdur. Beynəlxalq tədbirlərin keçirilməsi mürəkkəb bir mexanizmə malik olduğundan təşkilatçılıq, təhlükəsizlik, iqtisadi imkanların mövcudluğu da həlledici rola malikdir ki, ölkəmizdə bütün bu və ya digər tədbirlərin yüksək səviyyədə təşkili öz həllini tapır. Azərbaycan Prezidenti İlham Əliyevin davamlı və məqsədyönlü fəaliyyətinin nəticəsidir ki, Azərbaycan dünyada aparıcı idman ölkələrindən biri kimi tanınır. Azərbaycanda keçirilən Dünya və Avropa çempionatları bir daha sübut etdi ki, həqiqətən də, Azərbaycanda idman uğurla və sürətlə inkişaf edir. Prezident İlham Əliyevin dediyi kimi: ”İdman Azərbaycanda dövlət siyasətidir. Dövlət bu istiqamətdə öz siyasətini apararkən idmanın hərtərəfli inkişafına nail ola bilmişdir”.

### MÖVCUD İDMAN İNFRASTRUKTUR VƏ İDMANIN TƏBLİĞİ ÜÇÜN NÜMUNƏVİ FƏALİYYƏT

Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyası Bakı şəhərini 2026-cı il üçün dünyanın ”İdman Paytaxtı” seçməsi təsadüfü hal deyil. Azərbaycanda əhalinin sağlamlığının möhkəmləndirilməsi, yüksək standartlara uyğun mövcud idman infrastrukturu və idmanın təbliği üçün görülən nümunəvi fəaliyyət yüksək qiymətləndirilib. Qeyd edək ki, gələn ilin sonunda Belçikanın Brüssel şəhərində, Avropa Parlamentində Bakı şəhərinin dünyanın ”İdman Paytaxtı” olaraq rəsmi təqdimat mərasiminin keçirilməsi planlaşdırılır.

İdman sahəsinə ayrılan diqqət və göstərilən qayğı gənclərin bu sahəyə olan marağını artırıb. Kütləvi olaraq bu sahəyə axın var. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğulayıb ki, idmanın kütləviliyini təmin edərək biz xalqımızın sağlamlığını qoruyacağıq və bizim gənclərimiz, gənc nəsil sağlam olacaq - həm fiziki cəhətdən, həm mənəvi baxımdan: ”Çünki fiziki cəhətdən güclü insan adətən öz gücündən yalnız çətin məqamda istifadə etməlidir. Güclü insanda özünə əminlik var. Fiziki cəhətdən güclü insan heç vaxt ondan zəif insana qarşı zor tətbiq etməməlidir. Ancaq özünü, öz yaxınlarını, öz torpağını qorumalıdır. Ona görə idmanın inkişafı, sadəcə olaraq, idman nəticələri əldə etmək üçün vasitə deyil, idmanın inkişafı xalqın sağlamlığıdır və Azərbaycan xalqı sağlam olmalıdır”.

### İDMANÇILARIMIZ MÜZƏFFƏR ÖLKƏNİ TƏMSİL EDİR

Müasir dövrümüzdə Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər mühiti formalaşıb. Gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına geniş imkanlar açıb. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Xalqımızın qəhrəmanlıq tarixini yazanlar da gənclərdir. Qazanılan uğurlar, bir daha onu sübut edir ki, hər bir gənc ölkə qarşısında qoyulan böyük məqsədi və məsuliyyəti dərk edir. 44 günlük Vətən müharibəsində gənclərimiz vətənpərvərlik nümayiş etdirdilər. Yüksək milli ruhlu gənclərimiz Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad etdi. 30 illik həsrətə son qoyuldu.

### ”MÜKƏMMƏL ÇIXIŞ EDƏN İDMANÇIMIZ YENİLMƏZ İRADƏ, ƏZMKARLIQ VƏ MƏHARƏT NÜMAYİŞ ETDİRƏRƏK PARLAQ VƏ İNAMLI QƏLƏBƏ QAZANDI!”

Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkə həyatının bütün sahələrində olduğu kimi, idmanın inkişafına yönəlmiş qərarların qəbulu, tədbirlərin reallaşması idman sahəsində ölkəmizin yüksək beynəlxalq nüfuz qazanmasına səbəb olub. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı öz müsbət nəticəsini verib. Müxtəlif idman növləri - güləş, futbol, intellektual oyunlar, şahmat və s. növlərdə Azərbaycan Avropanın və dünyanın diqqətindən kənarda qalmayıb. İdmana ayrılan diqətin nümunəsidir ki, mötəbər idman yarışları, tədbirlər ölkəmizdə davamlı olaraq təşkil olunub. Əlbəttə ki, müasir dövrümüzdə idman sahəsində gerçəkləşdirilən dövlət siyasəti, Olimpiya ideallarının təbliği, müasir Olimpiya kompleksləri və digər tədbirlər nəticəsində, ölkəmiz mötəbər beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilməklə yanaşı, idmançılarımız mötəbər yarışların qalibi olub.

Bu yaxınlarda Azərbaycan cüdoçusu Hidayət Heydərov Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçirilən dünya çempionatında qızıl medal qazanıb. Bu münasibətilə Birinci vitse-prezident Mehriban Əliyeva instaqram səhifəsində onu təbrik edərək paylaşım edib. Paylaşımda deyilir: ”Cüdoçu Hidayət Heydərovu dünya çempionu titulu uğrunda yarışlarda qələbə qazanması münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Mükəmməl çıxış edən idmançımız yenilməz iradə, əzmkarlıq və məharət nümayiş etdirərək parlaq və inamlı qələbə qazandı! Gərgin əməyinə, Azərbaycan azarkeşlərinə bəxş etdiyi sevincə görə cüdoçumuza təşəkkür edir, ona möhkəm cansağlığı, yeni-yeni qələbələr və nailiyyətlər arzulayıram!”.

### ƏN MÜASİR İDMAN İNFRASTRUKTURU

Son illərdə Bakıda və bütövlükdə, Azərbaycanda idman infrastrukturunun yaradılması istiqamətində böyük işlər görülüb. ”Təkcə onu demək kifayətdir ki, Azərbaycanın bölgələrində 50-yə yaxın müasir Olimpiya İdman Kompleksi tikilmişdir. Bakıda isə bu gün ən müasir idman infrastrukturu mövcuddur. Əvvəlki illərdə tikilmiş idman obyektləri əsaslı təmir olundu və eyni zamanda, son illərdə bir neçə böyük stadion, idman zalı inşa edildi. Onların arasında əlbəttə ki, təxminən 70 min tamaşaçı yeri olan Olimpiya Stadionunu qeyd etməliyəm”, - deyə Azərbaycan Prezidenti bildirib. Milli Gimnastika Arenası, Su İdmanı Sarayı və Bakı Atıcılıq Mərkəzinin tikintisi böyük investisiya tələb edən müasir idman qurğularıdır. Eyni zamanda, Bakıda idman şəhərciyi fəaliyyət göstərir”. Bakı Olimpiya Stadionu, Tofiq Bəhramov adına Respublika Stadionu, Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, ”Baku Crystall Hall”, Bakı Tennis Akademiyası, Heydər Əliyev adına İdman Arenası, ”Bakcell Arena”, Bakı Atıcılıq Mərkəzi, Bakı Ekspo Mərkəzi və digər idman kompleksləri müxtəlif növ yarışların keçirilməsinə imkan verir. İndi, nəinki paytaxt Bakıda, demək olar ki, ölkəmizin bütün bölgələrində müasir Olimpiya idman kompleksləri fəaliyyət göstərir.

### İDMAN YARIŞLARI ÜÇÜN BEYNƏLXALQ MƏKAN

Dünyanın idman ictimaiyyətinin diqqətini çəkən Azərbaycanda - paytaxt

Bakıda irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunur. Son illərdə dünyada ən sürətli templərlə inkişaf edən ölkəyə çevrilən Azərbaycanda 300-dən çox beynəlxalq yarış keçirilib. Dünyanın idman ictimaiyyətinin diqqətini çəkən Azərbaycanda ən irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunur. Bu yarışların Azərbaycanda keçirilməsi bir daha inkişaf etmiş bir dövlət olaraq, hər bir sahədə olduğu kimi, idmanda da ölkəmizə böyük imic qazandırıb. Dünyaya əminliklə bəyan etdiyi gücünü, qüdrətini və təhlükəsizlik tədbirlərinə cavabdehliyini göstərib. Yeniyetmə cüdoçuların Avropa çempionatı, bədii gimnastika üzrə 27-ci dünya çempionatı, sərbəst güləş və yunan-Roma güləşi üzrə 24-cü dünya çempionatı, görmə qüsurlu paralimpiyaçı cüdoçular arasında Avropa çempionatı, bədii gimnastika üzrə 25-ci Avropa çempionatı, qılıncoynatma üzrə gənclər və kadetlər arasında dünya çempionatı, gənclər arasında boks üzrə dünya çempionatı və s. uğurla keçirilib. Bu yarışların Azərbaycanda keçirilməsi, inkişaf etmiş bir dövlət olaraq, hər bir sahədə olduğu kimi, idmanda da ölkəmizə böyük imic qazandırıb. İlk Avropa Oyunlarının da Bakıda keçirilməsi böyük nailiyyət kimi idman tariximizə həkk olundu. ”Bakı - 2015” Birinci Avropa Oyunlarının yüksək səviyyədə təşkil olunması və tarixi qələbənin qazanılması gələcəkdə ölkəmizdə daha möhtəşəm idman tədbirlərinin keçirilməsi üçün yeni perspektivlər açdı. ”Bakı-2015” ilk Avropa Oyunları təkcə qitədə deyil, dünya miqyasında mötəbər idman tədbiri kimi tarixiləşdi.

İslam Həmrəyliyi Oyunlarında Azərbaycan idmançılarının qələbələri də yaddaqalan oldu. Bu idman, dostluq və qardaşlıq bayramına çevrilən oyunlar bir daha Azərbaycanın gücünü göstərdi. Azərbaycan 2015-ci ildə Avropa Oyunlarında ikinci, 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarında isə birinci yerə layiq görüldü. ”Avropa Liqasının 2019-cu ildəki final matçı və UEFA 2020-ci ilin matçları 2021-ci ildə Bakıda keçirildi. Bütün bu uğurlar onu göstərir ki, gənc nəslin fiziki və mənəvi cəhətdən sağlam yetişməsini dövlətimiz daim diqqət mərkəzində saxlayır. Məhz bu diqqət və qayğı Azərbaycanın qarşıdakı illərdə idmanda daha böyük uğurlara imza atacağını deməyə əsas verir. Bu gün ölkəmizdə cəmiyyətin inkişaf edən bütün sahələri kimi idman da öz çiçəklənmə dövrünü yaşayır. Yüksək səviyyəli idman infrastrukturunun yaradılması və olimpiya idman komplekslərinin inşa edilərək xalqımızın ixtiyarına verilməsi bunun təzahürüdür.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Mələklər və Paşinyanın rəqibləri

***Azərbaycan prezidenti İlham Əliyev Latviya Seyminin sədri Daiga Mierina ilə görüşündə bildirib ki, Bakı ilə İrəvan arasında ümumi sərhədin demarkasiyası və delimitasiyası ilə bağlı artıq müsbət razılaşmalar əldə olunub. Bir qədər sonra Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan İlham Əliyevə zəng edərək "Azərbaycan və Ermənistan arasında sülh prosesinin müsbət istiqamətdə irəliləməsindən" məmnunluğunu bildirib. Öz növbəsində Ermənistan hakimiyyəti Kirants kəndi ərazisində sərhədi tamamladığını açıqlayıb. Bununla əlaqədar olaraq hüquq-mühafizə orqanları kütləvi etirazların qarşısını almaq üçün əraziyə girişi müvəqqəti olaraq bağlayıb. Məlum olduğu kimi, ehtiyat tədbirləri nəticəsiz qalmayıb.***




Kirants administrasiyasının rəhbəri Kamo Şaqinyanın jurnalistlərə verdiyi məlumata görə, təhlükəsizlik qüvvələri üç sərhəd sütununu qazıb və onların yaxınlığında silahlı mühafizəçilər yerləşdiriblər. Nəticədə Azərbaycan ərazisində iki yaşayış binası, üç treyler mağazası və bir avtoyuma məntəqəsi uçurulub. Bundan əlavə, altı ev sərhəd xəttinə yaxın olduğundan insanlar orada yaşamağa qorxurlar. Məktəbdən Azərbaycan sərhədinə qədər cəmi bir dəqiqədən az vaxta piyada getmək olar.

Eyni zamanda, erməni tərəfi narazılıq edir ki, Kirantsa gedən yolun bağlanması səbəbindən oraya hətta ərzaq da çatdırıla bilmir. Məsələn, ərzaq mağazalarından birinin əməkdaşı jurnalistlərə bildirib ki, bir gün əvvəl çörək daşıyan yük maşınına əraziyə girməyə icazə verilməyib, çünki yol Azərbaycan ərazisindən keçir. Yerli sakinlər bu vəziyyətin nə qədər davam edəcəyini polisdən öyrənməyə çalışsalar da, məlum olub ki, onların özləri də bilmirlər. Düzdür, Tavuş vilayətinin qubernatorunun ofisi ərzaq qıtlığı ilə bağlı məlumatı təkzib edib.








Xatırladaq ki, mayın 15-də Ermənistan Xarici İşlər Nazirliyi Ermənistan-Azərbaycan sərhədi üzrə dövlətlərarası komissiyanın 9-cu iclasının yekunlarına görə Bakının 25 hektar kənd təsərrüfatı sahəsinin Kirantlara verilməsi barədə qərar qəbul edildiyini bildirmişdi. Kəndi Ermənistanın qalan hissəsi ilə birləşdirən yol problemi hələ də qalır, çünki onun bir hissəsi Azərbaycanda qalıb. Söz verirlər ki, yaxın 2-3 ay ərzində marşrutu bərpa edəcəklər. Alternativ marşrut xətti də çəkiləcək.

Kiranets kəndində kütləvi etirazların olması barədə heç bir məlumat yoxdur. Lakin mayın 20-də səhər saatlarında Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası əleyhinə olan bir qrup müxalifətçi, o cümlədən parlamentin müxalifət deputatları və Tavuş vilayətinin arxiyepiskopu Baqrat Qalstanyan kəndə daxil olmağa çalışsalar da, polis səddi ilə qarşılaşıblar. Yalnız keşiş maneəni dəf edə bilib. Onun sözlərinə görə, o, bunu "mələyin qanadlarında" edib. Qalanları daha az şanslı olublar, onlar xüsusi təyinatlılarla qarşılaşıblar və qarşıdurmada məğlub olaraq geri çəkiliblər. Ümumilikdə azı 14 nəfər saxlanılıb.

Kirantsda olan kimi Qalstanyanın ilk addımı baş nazir Nikol Paşinyanın devrilməsinə çağırış olub. "İrəvanda oturan adam getməlidir. Bunun nə erməni xalqına, nə də Konstitusiyaya aidiyyatı var. Delimitasiya Kirantsın, Voskeparın, Bağanilərin və ya başqa kiçik kənd icmasının problemi deyil, Ermənistanın mövcudluğu problemidir. Problem buradadır, həll yolu İrəvandadır", - arxiyepiskop bildirib. Bundan dərhal sonra o, İran səfirliyini ziyarət etmək və İslam Respublikası prezidentinin vəfatı ilə bağlı başsağlığı vermək üçün paytaxta qayıtmaq qərarına gəlib.

Sərhədin delimitasiyası əleyhdarları sübut etməyə çalışırlar ki, Paşinyan hakimiyyəti sovet xəritələrinə uyğun olaraq öz ərazilərini Azərbaycana qaytarmır, Ermənistan torpaqlarını verir. Bu versiyanın lehinə arqumentlərdən biri əvvəllər indi Azərbaycan ərazisində olan evlərin sakinlərinin Ermənistanda qeydiyyat sənədləri aldıqları iddiası idi. Lakin Respublika Ədliyyə Nazirliyindən cavab verilib ki, sənədlər etibarsız məlumatlar əsasında tərtib edilib. Buna baxmayaraq, səlahiyyətlilər zərərçəkmişlərə köçmə xərclərini ödəyəcəklərini vəd edir.

"Hələlik biz görürük ki, etirazlar azalmaq üzrədir və müxalifət öz çıxışlarına yeni təkan vermək üçün imkanlar axtarır. Amma hələlik bu işləmir. Birincisi, uyğun yeni məlumat halları yoxdur. İkincisi, Paşinyanın rəqibləri aydın siyasi gündəm formalaşdıra bilmirlər. Etirazı Kirantsdan İrəvana yaydılar, lakin bundan sonra nə edəcəklərini düşünmədilər. Xüsusilə, Paşinyanın impiçmenti ideyasını həyata keçirmək mümkün olmadı, çünki müxalifətin bu prosedura başlamaq üçün səsləri belə yoxdur", - deyə erməni politoloq Arşaluys Mqdesyan bildirib.

Ekspertin fikrincə, Ermənistan-Azərbaycan sərhədinin delimitasiyasının davam etdirilməsindən çox şey asılı olacaq. Hələlik bu, sovet xəritələrinə tam uyğun gedir, lakin ermənilər arasında belə bir fikir yayılıb ki, bu, ona görə baş verir ki, Ermənistan Tavuş bölgəsində əraziləri Azərbaycandan almamalı, təslim etməlidir. Məsələn, Sünik bölgəsinə gəldikdə, Bakı başqa mövqe tuta bilər, çünki burada geri çəkilməli olacaq. "Sərhədlərin delimitasiyasına başlamazdan əvvəl sülh müqaviləsi bağlamaq lazım idi. Belə çıxa bilər ki, İlham Əliyev Paşinyana simasını xilas etmək imkanı verib və bunun müqabilində o, dörd kəndin ərazisini qaytaracaq. Bəlkə də bütün bunlar bitəcək. Əks halda, niyə məhz bu yerdə sərhəd çəkməyə qərar verdikləri bəlli deyil. Azərbaycanın Ermənistana qaytarmalı olduğu ərazilərə gəlincə, onlar hətta Tavuş bölgəsində də var, amma hələlik hamı bu barədə susur", - politoloq Tiqran Köçəryan bildirib.

Bu arada Ermənistan parlamentinin spikeri Alen Simonyan bildirib ki, 2026-cı ildə keçiriləcək parlament seçkilərində hakim "Mülki Müqavilə" partiyası Kirants və digər sərhədyanı kəndlərdə inamlı qələbə qazanacaq. Onun sözlərinə görə, indi müxalifət "insanların emosiyalarını qızışdırır və onlarla oynayır", lakin heç kim şübhə etməməlidir ki, Ermənistan heç kimə zərər verməyəcək, heç kimi evsiz qoymayacaq.

Erməni keşişinin başlatdığı "hərəkat" artıq fiaskoya uğrayıb. Ermənilərin din xadiminə ümid bağlamaları, ondan yardım istəmələri o dünyaya köç etməyə hazırlaşan adamın son arzusuna bənzəyir. Yəqin ermənilərin revanşist qanadı da bu istəkdədir, ölüm ayağında dua etməsi üçün keşiş Baqrata müraciət edirlər.

***V.VƏLİYEV***

RAKURS

# Sosial media və onun QURBANLARI

ARAŞDIRMA

***Biz müxtəlif işlərimiz üçün "Facebook", "Twitter" və "İnstagram" kimi bir çox sosial şəbəkələrdən istifadə edirik. Üstəlik, etiraf etməliyik ki, bu platformalardan istifadə etməkdən də həzz alırıq. Şəkillərimizdəki bəyənmələri saymaqla, nə etdiyimizi, nə içdiyimizi söyləməkdən, göstərməkdən aldığımız diqqətdən çox razıyıq. Lakin sosial medianın əhvalımızı pozacaq təsirini görən kimi də onu günahlandırırıq. Halbuki bu tətbiqi biz özümüz biləirək və istəyərək mobil telefonumuza yükləmişik.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

İngiltərədə aparılan bir araşdırma bu məsələyə baxışımızı ortaya qoyur. 2266 nəfər üzərində aparılan araşdırmada iştirakçılara sosial medianın həyatlarının mühüm anlarına necə təsir etdiyi soruşulub. Araşdırmanın nəticələrinə görə, hər 10 britaniyalıdan biri sosial medianın həyatlarının mühüm anlarına mənfi və birbaşa təsir etdiyini söyləyir. Onlar deyir ki, bütün baş verən neqativ hallar sosial medianın günahıdır. Digər tərəfdən, iştirakçıların 13 faizi sosial şəbəkədə foto paylaşmağı sevmədiklərini və buna səbəb kimi "Mənim şəkillərim başqalarının fotoşəkilləri qədər yaxşı görünmür" deyir.

### Müqayisələr aparılır

Eyni araşdırmanın nəticələrinə görə, iştirakçıların 85 faizi mühüm anlarını sosial mediada izlədikləri digər insanların paylaşımları ilə müqayisə edir və nəticədə üzülürlər. Düşünürəm ki, müzakirə edilməli olan əsas məsələ buradakı düşüncə tərzinin birbaşa sosial medianın işləməsi ilə bağlı olub-olmamasıdır. Bəli, hər kəs həyatının "ən yaxşı həyat" olduğunu göstərməyə çalışır, bəs bu "günah"ın neçə faizi sosial mediadadır?



### Dəyişmək insanlığın əlindədir

Sosial medianın faktiki fəaliyyəti o qədər qəddar olsa belə, psixi sağlamlığımız üçün birbaşa təhdid kimi görünsə belə, həqiqətən edilməsi lazım olan şey düşüncə tərzimizi dəyişdirməkdir. Sosial media hesablarımız güzgüdür. O güzgünün nəyi və necə əks etdirdiyini və güzgüdə necə göründüyünü müəyyən etmək isə tamamilə bizə bağlıdır. Keçmişdə sosial media hesablarımıza "nəhəng güzgü" kimi baxmasaydıq, bu gün həyatımıza bu qədər böyük təsiri olmazdı.

### Sosial media və boşanma

Sürətlə inkişaf edən texnologiya bir çox fərqli sosial media tətbiqinin ortaya çıxmasına səbəb oldu və sosial media daha çox insanların bir-biri ilə əlaqə qurduğu və özləri haqqında paylaşdığı platformalar kimi tanınır. Ancaq günlər keçdikcə sosial medianın funksiyası və məqsədi dəyişməyə başlayıb. Belə ki, sosial medianın insanların real həyatına təsiri günü-gündən artır.





Əslində bir çox insan sosial mediada özlərinə qeyri-real saxta həyatlar yaradır və bu həyatları tərk edib real həyata qayıtdıqda axtardıqlarını tapa bilmir və real həyat onlara həzz vermir. Onların sosial mediada qurduqları əlaqələr daha real görünür və bu, günümüzün ən diqqət çəkən mövzularından birinə qədər uzanır. Bu da sosial medianın evliliyə təsiridir.

### Sosial Medianın Evliliyə Təsiri



Sosial medianın evli cütlüklərə təsirinin günbəgün artdığı iddia edilir. Bunu yanlış adlandırmaq yalan olar. Çünki həyatın bütün sahələrində olduğu kimi, sosial medianın da evliliyə təsiri əhəmiyyətlidir və mənfi təsir göstərir. Əgər cütlüklərdən biri belə sosial mediaya həddindən artıq qarışırsa, bu, hər iki tərəfə mənfi təsir edir.

Misal üçün, əgər cütlüklərdən biri davamlı olaraq sosial şəbəkədə vaxt keçirirsə, bu, cütlük arasında soyuqluq yaradacaq, çünki sosial media ilə məşğul olan şəxs partnyorunun heç bir şeyi ilə maraqlanmır. O, real həyatda mövcud olan həyatdansa, saxta həyata üstünlük verir.

### Sosial media və boşanma hallarında artım

Sosial medianın populyarlaşması ilə boşanma halları artmağa başlayıb və cütlər arasında davam edən sosial media müzakirələri ciddi həddə çatdıqda asanlıqla boşanma qərarı verə bilirlər. Sosial media asılılığı cütlükləri bir-birindən uzaqlaşdırır və boşanmaları asanlaşdırır, sosial mediadakı hərəkətlər də cütlüklər arasında problemlər yaradır.

Sosial medianın boşanma hallarına təsiri bir çox evlilikləri bitirir və mübahisələrə səbəb olur. Misal üçün, Sosial şəbəkələrdə əks cinsdən olan insanlarla söhbət etmək, çoxlu dostluq əlaqələri qurmaq, hətta partnyorunun istəmədiyi şəkilləri paylaşmaq da qüsur sayıla bilər.

Bu kimi amillərə görə evlilik asanlıqla bitə bilər və cütlər sosial mediada yaranan fikir ayrılıqlarına görə boşanma qərarı verə bilərlər.

### SOSİAL MEDİA QURBANLARI

*Dünyadan nümunə*

Sosial medianın qurbanları arasında iki yeniyetmə də var. Biri 14 yaşlı şagird, digəri 20 yaşlı gənc qadındır. Bir neçə il öncə həyatları sona çatan iki gənc, ailələrini və sevdiklərini ömürləri boyu keçə bilməyəcəkləri sonsuz ağrılar içində qoyub.

Mia Janin Şimali Qərbi Londonda yaşayan 14 yaşlı tələbə idi. O, 12 mart 2021-ci ildə ailəsi tərəfindən evində ölü tapılıb. Atası Mariano Janin mediaya verdiyi açıqlamalarda qızının sosial şəbəkədə ona yönələn təqiblər nəticəsində intihar etdiyini bildirib. Ata bu yaxınlarda Mianın ölüm səbəbini araşdırmaq üçün açılan məhkəmə iclasında eyni iddianı təkrarladı.

Məhkəmədə Mianın dostlarının polisə verdiyi ifadələr də oxunub. Bu ifadələr, Mianın "TikTok" və qurduqları "Snapchat" qrupu vasitəsilə məktəbində bəzi kişi tələbələr tərəfindən təqib edildiyini və ələ salındığını ortaya qoydu. Mianın bir dostu bildirmişdi ki, Mianın dostları bu tələbələr tərəfindən "intihar dəstəsi" ləqəbini alıblar.

Morgan Ribeiro isə 20 yaşlı gənc qız idi. İllərdir artıq çəkili olduğu üçün ələ salınan və sosial mediada təzyiqlərə məruz qalan gənc qadın bir neçə həftə əvvəl həyatı bahasına başa gələcək bir qərar verir və artıq çəkidən xilas olmaq üçün mədə kiçiltmə əməliyyatı üçün Türkiyəyə yollanır.

Əməliyyatdan sonra Morqan sevgilisi Ceymi ilə birlikdə İngiltərəyə qayıdarkən təyyarədə xəstələnir. Təyyarə Serbiyada təcili eniş edir və gənc qadın xəstəxanaya çatdırılır. Təəssüf ki, Morqan bütün müdaxilələrə baxmayaraq xilas ola bilmir və ölür.

Türkiyədə əməliyyat keçirən cərrah Morqanın əməliyyat nəticəsində deyil, təyyarədə keçirdiyi emboliya nəticəsində dünyasını dəyişdiyini iddia edir.

Morqan sosial şəbəkədə paylaşdığı son fotoya bu sözləri yazıb: "Arıqlamaq əməliyyatından əvvəlki son paylaşımım. Sonra görüşərik".




Burada vurğulanması lazım olan əsas məsələ odur ki, bir çoxlarının, adətən gənc qadınların həyatları sosial mediada artan təzyiqlərə görə dözülməz hala düşüb və nəticədə Mia, Morqan və onlar kimi bir çoxlarının həyatının sonu olub. Ən əsası isə bu vəziyyətin qarşısını almaq üçün nə etmək lazım olduğuna dair ciddi, işlək üsullar olmalıdır.

Amma unutmayaq ki, bütün sosial pozuntular sosial media tərəfindən icad olunmayıb. Sosial medianın müsbət tərəfləri də var. Uşaqlarımızı və gənclərimizi sosial medianın müsbət cəhətlərindən istifadə etməyə təşviq etməliyik. Lakin, uşaqlarda bunların istifadəsinə nəzarət edək və onlara rəhbərlik edək. Çünki zərərsiz görünən şeylər gələcəkdə həm özləri, həm də ailələri üçün böyük problemlər yarada bilər.

Sosial medianın Mia və Morqan kimi daha çox gəncin həyatını almasına mane olmaq ailələrin, məktəblərin, hökumətlərin, sosial media qruplarının, qeyri-hökumət təşkilatlarının, bir sözlə, hamımızın borcudur.

***Ayşən Vəli***



# “Bizim tariximiz mədəni müxtəliflik tarixidir”

Çağdaş dünyamızın aparıcı güc mərkəzləri, bəzi iddialı ölkələr insan hüquqları, din azadlığı anlayışından öz geosiyasi, geoiqtisadi maraqlarını təmin etmək üçün bir vasitə kimi istifadə edirlər. Müxtəlif siyasi, iqtisadi və coğrafi şəraitlərdə yaşayan xalqların ədalətə çıxışı ilk növbədə çoxmədəniyyətliliyin təmin edilməsindən asılıdır. Dünyanın diqqətində olan ölkəmizdə - Azərbaycanda isə nümunəvi dövlət-din münasibətləri uğurla həyata keçirilir və tolerant mühit hökm sürür. Əlbəttə ki, mövcud vəziyyət, dövlət siyasəti bəşəri dəyərlər sisteminə, xüsusilə beynəlxalq təhlükəsizliyə qarşı yaranmış təhdidlərin qarşısının alınmasında çox önəmli strategiyaya çevrilib. Dini dözümlülük, tolerantlıq kimi dəyərlər Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Əsas Ana Qanunumuzda irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi mövqeyindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyi nəzərdə tutulmuş, insan və vətəndaş hüquqlarının və azadlıqlarının göstərilən əsaslara mənsubiyyətinə görə məhdudlaşdırılması qadağan edilib. Ölkəmizdə yaşayan qeyri-xalqların nümayəndələri ilə xalqımızın əmin-amanlıq şəraitdə yaşaması, birlik, həmrəylik nümayiş etdirməsi şübhəsiz ki, əsrlərin sınağından çıxan dəyərlərdən qaynaqlanır. Ölkədə formalaşan bu və ya digər dəyərlər artıq Azərbaycan cəmiyyətini səciyyələndirən ənənəyə çevrilib.



## ”AZƏRBAYCANIN BUGÜNKÜ SÜRƏTLİ İNKİŞAFI DA MƏHZ BU MƏDƏNİ İRSİMİZƏ VƏ CƏMİYYƏTİMİZİN BÜTÜN NÜMAYƏNDƏLƏRİNİN NÜMAYİŞ ETDİRDİYİ HƏMRƏYLİYƏ ƏSASLANIR”

Azərbaycan müstəqillik illərində dövlət dini azlıqların hüquqlarının qorunması və təminatı sahəsində çox mühüm və ciddi addımlar atıb. Müxtəlif dini mənsubiyyətə malik insanlar cəmiyyətimizin ayrılmaz tərkib hissəsi olaraq dövlətin diqqət, qayğı və himayəsini eyni dərəcədə üzərlərində hiss edirlər. Bu gün ölkəmizdə bütün millətlərin və dinlərin nümayəndələri tam qarşılıqlı anlaşma, milli həmrəylik şəraitində yaşamaları üçün bütün şərait yaradılıb. Təbii ki, tolerant mühitin olması cəmiyyətdə bərabərliyin, demokratiyanın, tərəqqinin, sosial rifahın, ədalətin bərqərarı deməkdir.

Dünyanın ən qədim xristian dövlətlərindən birinin yerləşdiyi məkan olan Azərbaycanda xristian icması əsrlər boyunca tariximizin formalaşmasında iştirak edib. Azərbaycan Prezidenti çıxışlarının birində bildirdiyi kimi, tarix və coğrafiyamız nümayiş etdirir ki, biz yalnız tərəfdaşlıq və qarşılıqlı hörmət ruhunda uğura nail ola bilərik. ”Azərbaycanın bugünkü sürətli inkişafı da məhz bu mədəni irsimizə və cəmiyyətimizin bütün nümayəndələrinin nümayiş etdirdiyi həmrəyliyə əsaslanır. Biz tariximiz, tarixi abidələrimizlə fəxr edirik. Onlar da əsrlər boyu müxtəlif dinlərin nümayəndələrinin Azərbaycanda yaşayıb-yaratdıqlarını göstərir. Biz qədim tariximizlə fəxr edirik”,

## XALQLARIN TARİXİ BİRLİYİ VƏ QARDAŞLIĞI

Çətin, ağır, eləcə də xoş günlərdə də bütün xalqların nümayəndələri bir-birinin yanındadırlar. Azərbaycan Respublikasındakı etnik icma rəhbərləri Ermənistanın 2020-ci il iyul ayının 12-dən etibarən, Azərbaycanın Tovuz bölgəsində törətdiyi hərbi təcavüz aktlarını, təxribatları qətiyyətlə pislədilər. Bununla bağlı Azərbaycan Respublikasındakı etnik icma rəhbərləri birgə bəyanat yaydılar. Belə ki, Talış Mədəniyyət Mərkəzi, Azərbaycanda Rus İcması, Azərbaycan-Avar İcması İctimai Birliyi, Bakı Dağ Yəhudiləri Dini İcması, Azərbaycan Respublikasının Alban-Udi Xristian Dini İcması, Avropa Yəhudilərinin Bakı Dini İcması və digər icma rəhbərləri təmsil etdikləri Azərbaycan xalqları adından Azərbaycanın Tovuz bölgəsində törətdiyi hərbi təcavüz aktlarını, təxribatları qətiyyətlə pislədilər. Həmin təcavüz aktları nəticəsində Azərbaycanın ondan çox hərbi qulluqçusu, o cümlədən yüksək rütbəli zabitlər və bir dinc sakini həlak olmuşdur. Milli ordumuzun sıralarında Azərbaycanda yaşayan xalqların yüzlərlə nümayəndələri - əsgər və zabitləri var. Vətən Müharibəsi dövründə müxtəlif xalqların övladları da Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin çağırışına səs verərək, könüllü olaraq orduda xidmət etmək, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, torpaqlarımızı mənfur düşməndən təmizləmək istəyi ilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etmişdilər. Azərbaycanda elə bir xalq yoxdur ki, bu müqəddəs amal uğrunda mübarizədə şəhid verməsin. Ermənistan dəfələrlə Azərbaycanda yaşayan xalqların içərisinə ədavət toxumu səpməyə, süni qarşıdurma yaratmağa çalışmış, lakin öz mənfur niyyətinə nail ola bilməmişdir. Azərbaycanın ən böyük sərvəti onun etnik müxtəlifliyi, burada yaşayan bütün xalqların tarixi birliyi və qardaşlığıdır. Ölkəmizdə indiyədək etnik və dini zəmində qarşıdumaların baş verməməsi Azərbaycanın yürütdüyü milli siyasətin parlaq təzahürüdür.

Son illər qloballaşan dünyamızda müxtəlif bölgələrdə dini radikalizm, terrorizm, dözümsüzlük və ksenofobiya kimi halların artdığı dövrdə Azərbaycan uğurlu bir model təqdim edir. Hər bir dinin nümayəndələri rahat yaşayır, milli bayramlarını qeyd edir, öz dilində təhsil almaq imkanına malikdirlər. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin vurğuladığı kimi, bu gün dünyada nümunəvi tolerantlıq örnəyi, sivilizasiyalararası və mədəniyyətlərarası dialoq məkanı kimi tanınan Azərbaycanda tarixən dinlər əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində fəaliyyət göstərmiş, fərqli mədəniyyətlərin təmsilçiləri olan ayrı-ayrı xalqlar və etnik icmalar



ümumi Vətən sevgisi, azərbaycançılıq məfkurəsi ətrafında sarsılmaz birlik və həmrəylik nümayiş etdirmişlər: ”Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub-saxlanılması, multikulturalizmin dəstəklənməsi və təşviq edilməsi müasir mərhələdə həyata keçirdiyimiz dövlət siyasətinin başlıca məqsədlərindən biridir. Ölkəmizdə yaşayan müxtəlif xalqlara öz milli-mənəvi dəyərlərini, dini etiqadını, adət-ənənələrini qoruyub-saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün demokratik şərait təmin edilmişdir”.

## ”MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ BU GÜN DƏ ÖZ MÜTƏRƏQQİ TARİXİ ƏNƏNƏLƏRİNƏ SADİQDİR”

Azərbaycanda yaşayan milli azlıqlar öz dillərindən istifadə edir, maddi-mənəvi mədəniyyətlərini qoruyub saxlayır, özlərinin milli-mədəni birliklərini, assosiasiyalarını və ittifaqlarını yaradırlar. Belə təşkilatlardan Talış Mədəni Mərkəzi, Kürd Mədəni Mərkəzi (Ronai), Ləzgi Mədəni Mərkəzi (Samur), Ləzgilərin Mifologiyasını Öyrənən Mərkəz, ”Saxur” Mədəni Mərkəzi, Şeyx Şamil adına Avar Cəmiyyəti, udilərin ”Orayin” Mədəni Mərkəzi, tatların ”Azəri” Mərkəzi, Buduq Mədəni Mərkəzi, Azərbaycan slavyanlarının Mədəni Mərkəzi, Rus İcması Cəmiyyəti, Xınalıq Mədəni Mərkəzi, Azərbaycan Tatlarının İcması, Azərbaycan Gürcülərinin Cəmiyyəti, Azərbaycan Ukraynalılarının Cəmiyyəti, Azərbaycan Avropa Yəhudilərinin İcması, Almanların Milli - Mədəni Cəmiyyəti, Azərbaycan Yəhudiləri Cəmiyyəti, Axıska türklərinin Vətən Cəmiyyəti və s. nümunə göstərmək olar.Təsadüfi deyil ki, azsaylı xalqların zəngin musiqi folkloru Azərbaycanın mənəvi mədəniyyətinin ayrılmaz tərkib hissəsini təşkil edir. Azərbaycanın ənənəvi ”Musiqi Atlası” layihəsi Azərbaycan musiqi folklorunun rəngarəng dialektlərini də əhatə edir. Bütün xalqların dini-mədəniyyət abidələri dövlətimiz tərəfindən qorunur. Şəki rayonunun Kiş və Qəbələ rayonunun Nic kəndlərindəki kilsələr, Qax rayonu ərazisində xristian kilsəsi, Masallı rayonunun Ərkivan kəndində XIX əsr məscidi və s misal göstərmək olar.

Dünyada baş verən dinlərarası münaqişələr və müxtəlif ölkələrdə getdikcə artmaqda olan anti-semitizm və irqçilik fonunda Azərbaycanda bütün xalqların, o cümlədən yəhudilərin azad və dinc şəraitdə birgə yaşamaları, tam dini etiqad azadlığına malik olmaları çox təqdirəlayiqdir. Azərbaycanda yaşayan yəhudilər də hər il öz bayramlarını qeyd edirlər. Bayram vaxtı sinaqoqda ibadət edir, şofar (musiqi aləti) səsləndirir, xüsusi ayinlər yerinə yetirir, yardıma ehtiyacı olan şəxslərə kömək göstərir, bir masa ətrafına toplaşaraq günahlarının bağışlanması üçün dualar edirlər. Azərbaycanda qeyd olunan Roş-Ha-Şana və digər yəhudi bayramlarının unikal cəhəti müsəlmanlarla xristianların yəhudi bacı-qardaşlarının sevincini, xoşbəxtliyini bölüşməsi kimi xarakterizə olunur. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, ”Ölkəmizin bütün xalqları, o cümlədən yəhudi icması Azərbaycanda həmişə əmin-amanlıq şəraitində yaşamış, heç bir ayrı-seçkiliyə məruz qalmadan dil və mədəniyyətini, adət-ənənələrini qoruyub saxlamışdır. Müstəqil Azərbaycan dövləti bu gün də öz mütərəqqi tarixi ənənələrinə sadiqdir. Müasir demokratik prinsiplərə uyğun olaraq ölkədə insan haqlarının təminatı, milli azlıqların etnik-mədəni dəyərlərinin qorunması və inkişaf etdirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir”.

## MÜXTƏLİF ETNOSLARIN VƏ MİLLƏTLƏRİN YAŞADIĞI TOLERANT ÖLKƏ

Azərbaycan dövləti tərəfindən mədəniyyətlərarası dialoqun təşviqi məqsədilə həm beynəlxalq, həm də milli səviyyədə həyata keçirilən tədbirlər ölkəmizin beynəlxalq arenada nüfuzunu artırmaqla yanaşı, xalqımızın milli həmrəyliyini daha da möhkəmləndirir və ölkəmizi mədəniyyətləri qovuşduran məkan kimi beynəlxalq aləmə təqdim edir. Bu gün Azərbaycan dünyada azlıq və ya çoxluğun fərqinin hiss edilmədiyi ölkələr sırasında ilk yerlərdən birində qərarlaşmışdır. Azərbaycan dövlətinin apardığı milli siyasət göstərir ki, xalqlar bir-biri ilə mehriban yaşaya bilərlər və bu baxımdan ölkəmiz dünyaya nümunədir.

Son illər ərzində Azərbaycan dini, milli və etnik tolerantlıq sahəsində böyük uğurlara nail olub. Dövlət tərəfindən atılan məqsədyönlü addımlar Azərbaycan xalqının bütün dövrlərdə mehriban ailə, dost, qardaş olaraq yaşamaq ənənələrini daha da möhkəmləndirir.

”Bizim tariximiz mədəni müxtəliflik tarixidir və bu gün həmin tarixi irs əsasında Azərbaycan dünyaya mədəniyyətlərarası dialoqun ölkələri yaxınlaşdırmağın, müxtəlif mədəniyyət və sivilizasiya nümayəndələri arasında yeni körpülərin qurulmasının yeganə yol olduğunu nümayiş etdirir”, - deyə Prezident bildirib.

Bildiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyevin məlum sərəncamları ilə ölkəmizdəki mövcud dini konfessiyaların fəaliyyətini dəstəkləmək, habelə multikultural dəyərlərin daha da inkişaf etdirilməsi və yüksək tolerantlıq mühitinin qorunması məqsədi ilə maliyyə yardımları ayrılır. Prezidentin qeyd olunan sərəncamları Qafqaz Müsəlmanları İdarəsi, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumu, Bakı şəhəri Dağ yəhudiləri dini icması, Avropa yəhudilərinin Bakı dini icması, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna və s. şamil olunur.

Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan müxtəlif etnosların və millətlərin, fərqli dinlərə sitayiş edən insanların tarixən dostluq və qardaşlıq şəraitində yaşadığı tolerant ölkədir.

**Zümrüd BAYRAMOVA**

# Jurnalist Reyçel Avraham: “Erməniləri Qarabağdan heç kim silah gücü ilə çıxarmayıb”

***Vardanyan öz çevrəsini tərk edərək, Qarabağ bölgəsində məskunlaşan kolonialist olmağa qərar verən oliqarxdır. Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, bu barədə Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru, tanınmış siyasi şərhçi və jurnalist Reyçel Avraham beynəlxalq yəhudi mediasının populyar nəşri ”The Jewish Press”də dərc olunmuş məqaləsində yazıb.***


Despite Call for Declaring ‘New Genocide,’ Armenian Colonialist Invaders Are Not Victims

By Rachel Avraham



”Yeni soyqırımın elan edilməsi çağırışına baxmayaraq, erməni işğalçı kolonialistləri qurban deyil” sərlövhəli məqalədə bu yaxınlarda Kaliforniyadakı erməni təşkilatı ”Həqiqət və Ədalət Mərkəzi”nin Haaqa Beynəlxalq Cinayət Məhkəməsinə Azərbaycanı soyqırımında ittiham edən petisiya göndərməsi faktına diqqət çəkilib. Yazıda sözügedən iddiaya cavab olaraq qeyd edilib ki, keçən il Qarabağdan Ermənistana köçmüş ermənilər azərbaycanlılarla yanaşı yaşamaq istəmədiklərinə görə bunu ediblər və heç kim onları silah gücü ilə evlərindən çıxarmayıb. Habelə Ermənistanda gələcək həyatlarını qurmaq üçün könüllü olaraq Qarabağı tərk etmiş mülki ermənilərə münasibətdə kütləvi qırğınlar, işgəncələr və digər sağlamlığa xəsarət yetirmə halları qeydə alınmayıb.

Eyni zamanda diqqətə çatdırılıb ki, Ruben Vardanyan da daxil olmaqla, həbs edilən erməni separatçılarının rəhbərliyinə qarşı görülmüş bu tədbir üçün Azərbaycan tərəfinin kifayət qədər əsasları olub. Müəllif Vardanyanın Azərbaycanın Cinayət Məcəlləsinin 214.1-ci (terrorçuluğu maliyyələşdirmə), 279.3-cü (qanunla nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların yaradılmasında iştirak etmə) və 318.1-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunduğuna və bu yaxınlarda erməni separatçısının həbs müddətinin uzadıldığına diqqət çəkib, separatçı rejim rəhbərliyinin qalan üzvlərinin törətdikləri analoji və ya daha ağır cinayətlərə görə mühakimə olunduğunu vurğulayıb.

Göstərilənlərə əsaslanaraq Vardanyan və silahdaşlarının qurban rolunda çıxış etməsinə və ya təqdim olunmasına qəti etiraz edən politoloq Vardanyanı öz çevrəsini tərk edərək, Qarabağ bölgəsində məskunlaşan kolonialist olmağa qərar verən oliqarx adlandırıb. Müəllif Qarabağda deyil, Rusiyada doğulub boya-başa çatmış Vardanyanın əcdadlarının erməni olmasından başqa bölgə ilə heç bir bağlantısı olmadığını da diqqətə çatdırıb.



## Emoməli Rəhmon Azərbaycana dövlət səfərinə gəlib

Mayın 22-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycan Respublikasına dövlət səfərinə gəlib. Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonu Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.

*HÜQUQŞÜNAS DETALLARI AÇIQLADI*

# “Məzuniyyət hüququ məhdudlaşdırıla bilməz”

“İşçilərin və müəssisələrin qarşılıqlı vəzifə və öhdəlikləri, əmək münasibətləri Əmək Məcəlləsi ilə tənzimlənir”. Bu sözləri SİA-ya açıqlamasında hüquqşünas Xanlar Sətullayev deyib. O bildirib ki, işçilərin təməl hüquqlarından olan tam və qismən ödənişli məzuniyyətlərdən istifadə etmək hüquqlarına da Əmək Məcəlləsi ilə təminat verilir: ”Əmək Məcəlləsinin 16-cı fəsli Məzuniyyət hüququ və onun təmin edilməsi barədədir. İşçilər vəzifəsindən (peşəsindən), əmək şəraitindən və əmək müqaviləsinin müddətindən asılı olmayaraq, Əmək Məcəlləsi ilə müəyyən edilmiş məzuniyyətlərdən istifadə etmək hüququna malikdirlər. Əmək Məcəlləsinin 9-cu maddəsinə əsasən, işçilərin hər il bu məcəllədə nəzərdə tutulmuş minimum müddətdən az olmayan ödənişli əsas məzuniyyətdən və müvafiq hallarda əlavə sosial, ödənişsiz, təhsil məzuniyyətindən istifadə etmək hüququ var. Məzuniyyət hüququ məhdudlaşdırıla bilməz.

Məzuniyyətin əmək, yaradıcılıq, təhsil, eləcə də sosial, ödənişsiz olmaqla bir sıra növləri var. Əmək müqaviləsində, habelə kollektiv müqavilələrdə məzuniyyətlərin digər növləri nəzərdə tutula bilər.

Əmək məzuniyyəti - işçinin normal istirahəti, əmək qabiliyyətinin bərpası, sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi üçün işdən ayrılmaqla öz mülahizəsi ilə istifadə etdiyi müddəti qanunda nəzərdə tutulandan az olmayan istirahət vaxtıdır. Əmək məzuniyyətinin müddəti təqvim günü ilə hesablanır. Əmək məzuniyyəti müvafiq peşə (vəzifə) üzrə əmək funksiyasını yerinə yetirən işçilərə verilən illik əsas məzuniyyətdən və istehsalın, əməyin xarakterinə və əmək stajına görə, habelə uşaqlı qadınlara verilən əlavə məzuniyyətdən ibarət olub, istər birlikdə, istərsə də ayrılıqda verilə bilər. Əmək məzuniyyəti hər il müvafiq iş ili üçün verilir. İş ili işçinin işə götürüldüyü gündən başlanır və növbəti ilin həmin günü başa çatır. Əgər işçinin iş ili onun əmək məzuniyyətinə çıxmaq üçün müraciət etdiyi vaxtda başlanmayıbsa, onda ona əmək məzuniyyəti yalnız iş ili başlanandan sonra verilə bilər. Bir iş ilinə görə yalnız bir əmək məzuniyyəti verilə bilər. Təqvim ili ərzində işçinin iki iş ilinə görə məzuniyyət hüququ olduqda o, həmin təqvim ilində hər iki iş ilinə görə məzuniyyətdən birlikdə və ya ayrı-ayrılıqda istifadə edə bilər.



İşəgötürənlə əmək münasibətlərində olmaqla yanaşı doktoranturada (adyunkturada) müvafiq elmi dərəcə almaq üçün təhsilini davam etdirən işçilərə dissertasiya işlərini tamamlamaq, həmçinin müəlliflərə dərsliklər və ya dərs vəsaiti yazmaq üçün ödənişli yaradıcılıq məzuniyyətləri verilə bilər. Hamiləlik dövründə və doğuşdan sonrakı dövr üçün işləyən qadınlara 126 təqvim günü (doğuşdan əvvəl 70 təqvim günü və doğuşdan sonra 56 təqvim günü) müddətində ödənişli məzuniyyət verilir. Doğuş çətin olduqda, iki və daha çox uşaq doğulduqda doğuşdan sonrakı məzuniyyət 70 təqvim günü müddətində verilir.

Qohumluq borcunun yerinə yetirilməsi ilə bağlı ailə, məişət və başqa sosial məsələləri təxirə salmadan həll etmək, təhsil almaq, yaradıcı elmi işlə məşğul olmaq üçün, habelə yaşına, fizioloji keyfiyyətlərinə görə işdən ayrılmaq zərurəti olduqda işçinin ödənişsiz məzuniyyətlərdən istifadə etmək hüququ vardır. İşçinin birinci iş ili üçün əmək məzuniyyətindən istifadə etmək hüququ əmək müqaviləsinin bağlandığı andan etibarən altı ay işlədikdən sonra əmələ gəlir. Əmək məzuniyyəti işçinin arzusu və işəgötürənin razılığı ilə hissələrə bölünərək verilə bilər. Bir şərtlə ki, məzuniyyətin bölünmüş hissələrindən birinin müddəti iki təqvim həftəsindən az olmamalıdır. Məzuniyyətin bir hissəsindən istifadə edildiyi hallarda onun qalan hissəsi həmin məzuniyyətin verildiyi iş ili bitənədək və ya təqvim ilinin sonunadək, yaxud işçinin istəyi ilə növbəti iş ilinin əmək məzuniyyətinə birləşdirilib verilir.

İki aylığadək yaşında uşağı övladlığa götürən, yaxud övladlığa götürmədən böyüdən qadınlar doğuşdan sonra müəyyənləşdirilmiş 56 günlük sosial məzuniyyətdən, həmçinin Əmək Məcəlləsinin 117-ci maddəsi ilə müəyyənləşdirilmiş əlavə və 127-ci maddəsində nəzərdə tutulmuş qismən ödənişli məzuniyyətlərdən istifadə etmək hüququna malikdir. Uşağa bilavasitə qulluq edən valideynlərdən biri, yaxud ailənin başqa üzvü uşağın üç yaşı tamam olanadək ona qulluq etməkdən ötrü qanunvericiliklə müəyyən edilmiş məbləğdə müavinət verilən qismən ödənişli sosial məzuniyyət almaq hüququna malikdirlər. Uşağa qulluq edən işçi yazılı ərizəsi əsasında qismən ödənişli sosial məzuniyyət hüququndan tam, yaxud hissə-hissə istifadə edə bilər. Qismən ödənişli sosial məzuniyyət müddəti əmək stajına daxil edilmir. Əmək Məcəlləsinin 117.1-ci maddəsinə əsasən bütün əsas və əlavə əmək məzuniyyətinin müddətindən asılı olmayaraq 14 yaşınadək iki uşağı olan qadınlara 2 təqvim günü, həmin yaşda üç və daha çox uşağı olan, həmçinin sağlamlıq imkanları məhdud uşağı olan qadınlara 5 təqvim günü müddətində əlavə məzuniyyət verilir.



İşçilərin beş ildən on ilədək əmək stajı olduqda 2 təqvim günü, on ildən on beş ilədək əmək stajı olduqda 4 təqvim günü, on beş ildən çox əmək stajı olduqda isə 6 təqvim günü müddətində əlavə məzuniyyət verilir. Eləcə də zərərli və ağır işlərdə çalışan, habelə əmək funksiyası yüksək həssaslıq, həyəcan, zehni və fiziki gərginliklə bağlı olan işçilərin əlavə məzuniyyət hüququ var. İş şəraitinə və əmək funksiyasının xüsusiyyətlərinə görə əlavə məzuniyyətin müddəti 6 təqvim günündən az olmamalıdır”.

”İşçi müvafiq iş ilində əmək məzuniyyətindən istənilən səbəbdən istifadə etmədikdə ona həmin iş ili (iş illəri) üçün istifadə edilməmiş əmək məzuniyyətinə görə müəyyən olunmuş qaydada və məbləğdə kompensasiya ödənilir. Məzuniyyət işçinin işlədiyi günlərə görə formalaşdığı üçün hansı müddət işləməsindən asılı olmayaraq qazanılmış məzuniyyət günlərinin kompensasiyası ödənilməlidir. İşçiyə işlədiyi müddətdə istifadə etmədiyi məzuniyyətə görə kompensasiya hesablanarkən həm əsas, həm də əlavə məzuniyyətlərə görə kompensasiya hesablanır. Yəni məzuniyyət günlərinin əməkhaqqını müəyyən etmək üçün məzuniyyətdən əvvəlki 12 təqvim ayının əməkhaqqının ümumi məbləğini 12-yə bölməklə orta aylıq əməkhaqqının məbləği tapılır. Alınan məbləği ayın təqvim günlərinin orta illik miqdarına - 30,4-ə bölmək yolu ilə bir günlük əməkhaqqının məbləği müəyyən edilir. Bu qayda ilə müəyyən edilmiş bir günlük əməkhaqqının məbləği məzuniyyət müddətinin təqvim günlərinin sayına vurulur. Birinci iş ili üçün əmək məzuniyyətindən istifadə etmək hüququna gəlincə isə, bu hüquq əmək müqaviləsinin bağlandığı andan azı altı ay işlədikdən sonra yaranır.

Vətəndaşlar bilməlidirlər ki, işçinin məzuniyyət hüququ varsa, onu istədiyi vaxt götürüb istirahətə gedə bilər. İşçinin məzuniyyətə çıxma vaxtını işəgötürən müəyyənləşdirə bilməz. Əmək Məcəlləsinə əsasən, işçiyə müvafiq əməkhaqqı ödənişi məzuniyyətin başlanmasına üç gün qalmış həyata keçirilməlidir. Əgər vəsait ödənilməyibsə, işçi məzuniyyətin başlanma vaxtını ona əməkhaqqının faktiki verildiyi gündən hesablanmasını tələb edə bilər. İşçi məzuniyyətdə olduğu müddətdə işəgötürən əmək müqaviləsini ləğv edə bilməz.

Xatırlatmaq istəyirəm ki, bütün bunlar yalnız rəsmi surətdə əmək müqaviləsi bağlamış işçilərə aiddir. Bəzi vergidən yayınan işəgötürənlər şəxsin sənədini alıb guya əmək müqaviləsi bağladıqlarını bildirirlər, lakin xeyli keçəndən sonra bunun yalan olduğu üzə çıxır. Ona görə də hər bir işləyən şəxs e-sosial portalı üzərindən öz əmək müqaviləsi məlumatlarını yoxlamalıdırlar” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# Yaşıl enerjinin qara sirri

## Fasiləsiz artan qlobal tələbatı ödəməkdə alternativ enerjiyə tam güvənməyin riskli olduğunu göstərən aşkar əlamətlər və bəzi həlli çətin problemlər var

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb*



Enerjiyə tələbatın getdikcə daha çox artması gözlənilən enerji böhranı haqda strateji araşdırmaların artırılmasına səbəb olub. 2040-cı ildə qlobal elektrik enerji tələbatı 2020-ci ilə nisbətən 50% artaraq 35 mlrd meqavat/saata çatacaq. Dünya elmi enerji problemini həll etmək yolları axtarmaqdadır. Çünki həm ənənəvi enerji resursları tükənmək üzrədir, həm də planetin ekologiyasını məhv edir. Son vaxtlar alternativ enerji istiqamətində işlər sürətlənib, lakin artıq məlum olub ki, yaşıl enerjinin də ciddi problemləri var və dünyanın strateji enerji problemini tam həll edə bilməyəcək.

### Dünyanın enerji balansı: artan tələbat, axtarılan çıxış yolları

2020-ci ildə Avropa üzrə elektrik enerjisi istehsalında mineral yanacağın payı 37-yə düşdü, bərpaolunan enerjinin payı isə 38-ə yüksəldi. Yəni, ilk dəfə elektrik istehsalında bərpaolunan enerjinin payı ənənəvi enerjinin payını keçdi. İldən ilə bu tendensiya davam edir və edəcək. Lakin proqnozlara görə, neft, qaz və daş kömürün dünya energetikasında dominant mövqeyi ən azı 2070-dək davam edəcək. Qlobal energetikada neftin payı 30%, qazın payı 22%, daş kömürün payı 28%, atom enerjisinin payı 10, hidroenerjinin payı 7%, günəş, külək və digər enerjilərin payı 3%-dir.

2030-cu ildə dünya əhalisinin bu gün istehlak etdiyindən 45% daha çox enerjiyə ehtiyac duyacağı ehtimal olunur və mövcud enerji istehsalının artan tələbatı ödəyə biləcəyinə dair narahatlıqlar yaranır.

Ətraf mühitə ən çox sənaye tullantıları atan, dünya üzrə ekologiyaya vurulan zərərin 40 faizini təşkil edən ABŞ-da da getdikcə ekoloji təmiz enerjiyə keçid prosesi sürətlənir. Belə ki, ABŞ hökuməti kömür mədənlərinə verilən maliyyə dəstəyini dayandırıb, yeni boru kəmərləri çəkilməsinə məhdudiyyət qoyub. Ən böyük neft, qaz və kömür resurslarına malik və böyük ənənəvi enerji istehsaçısı olan Rusiyada da bərpaolunan alternativ enerjinin payını yüksəltməyə çalışırlar.

Öz karbohidrogen yataqları olmayan və enerji ixracından asılı olan Çin, Yaponiya, Hindistan kimi ölkələr isə ənənəvi yanacaq növlərini atom enerjisi və bərpaolunan enerji növləri ilə əvəzləməyə çalışır. Ümumi elektrik enerjisi istehsalının Kanadada 61%, Rusiyada və Çində 16%, Hindistanda və Almaniyada 15%, ABŞ-da və Fransada 11%-i bərpaolunan enerjinin payına düşür.

Neft, qaz və kömür yataqlarının 21-ci əsrin sonunadək tükənəcəyi haqda proqnozlar qlobal əndişəni artırıb və inkişaf etmiş ölkələr bərpaolunan enerjiyə keçmə prosesini sürətləndirirlər. İlk baxışda hər şey yaxşıdır, dünyanın sərvətlərinin amansız istismarı dayandırılacaq, ətraf mühitin çirklənməsi xeyli azalacaq və s. Lakin... burada bir əmma var. Yaşıl enerji də o qədər də məsum deyil və ümidləri doğruldacaq gücdə deyil. Bu yazıda sizlərə təmiz enerjinin kirli tərəfləri haqda danışmaq istəyirəm. Sual belədir-

### Yaşıl enerji nə qədər yaşıldır və dünyanı dəyişə bilərmi?

Əvvəla ənənəvi enerji sistemlərini nəzərdən keçirək. Karbohidrogen yanacağın heç bir müsbət tərəfi yoxdur. Yerin altından trilyonlarla ton neft, qaz, kömür və s. çıxarmaqla planetin kimyəvi balansını dəyişdirib təbii fəlakətlərə səbəb oluruq, üstəlik torpağı, suyu və havanı da zəhərləyirik.

Atom enerjisi də zərərsiz və təhlükəsiz deyil. Adi bir səhvin və ya təxribatın (Çernobıl AES), ya da təbii fəlakətin (Fukusima AES) necə dəhşətli faciələrə yol açdığını yaxın tarixdə görmüşük. Hələ müharibə və terror hücumu nəticəsində bu stansiyalarda necə dəhşətli bir faciənin baş verə biləcəyini aydın təsəvvür etmək mümkündür. Üstəlik, radiaktiv tullantıların utilizasiyası problemi həll olunmayıb.

Bundan başqa, bu enerji növləri deyildiyi kimi səmərəli və ucuz da başa gəlmir. Hazırda dünyadakı bir çox AES-lər zərərlə işləyir və yalnız dövlət subsidiyaları ilə işini davam etdirə bilir. Nüvə enerjisinin dünya ölkələrinin elektrik enerjisi istehsalında payı- Fransada 39%, ABŞ-da 19%, Almaniyada 17%, Rusiyada 16%, Kanadada 14% təşkil edir.

Dünya energetikasında payı 60 faizdən çox olan kömür də enerjiyə çevrilməsi zamanı təbiətə vurduğu zərərə görə çox baha başa gəlir. Dünyanın ən güclü ölkələrində kömürün payı heç də az deyil- Çində 79%, Hindistanda 68%, Almaniyada 45%, ABŞ-da 43%, Rusiyada 16%.

Bəs alternativ, bərpaolunan enerji resurslarının potensialı və perspektivi nədir? Potensiala gəldikdə, burada ağlagəlməz rəqəmlərdən söhbət gedir. Planetimizin təbii enerji potensialı ehtiyacımızı nəzəri olaraq milyon qat ödəmək gücündədir. Lakin bu potensialın nə qədərindən praktiki istifadə etmək mümkündür və burada hansı problemlər var ona baxmalıyıq. Yəni, perspektivə.

Son dövrdə əksər ölkələrə alternativ enerji sektoruna qoyulan investisiyalar kəskin artıb. Xüsusən də, öz enerji resursları olmayan ölkələr üçün bu yeganə çıxış yoludur. Nəticədə son 20 ildə alternativ enerjinin qlobal energetikada payı dəfələrlə artıb. Ümumilikdə, yaşıl enerjinin payı 10 faiz cıvarındadır.

Proqnozlara görə, 2030-cu ilədək bərpaolunan mənbələrdən və yaxud "yaşıl enerji"dən alınan elektrik enerjisi qlobal elektrik enerjisi istehsalının 65 faizini təmin edəcək. Beynəlxalq Bərpaolunan Enerji Agentliyinin hesablamalarına görə, 2050-ci ilədək dünyada elektrik enerjisinin 90 faizi bərpaolunan və yaxud "yaşıl enerji" mənbələrindən əldə edilə bilər. Bu, karbon qazı emissiyasını 70 faiz azaldılacaq. Lakin fasiləsiz artan qlobal tələbatı ödəməkdə alternativ enerjiyə tam güvənməyin riskli olduğunu göstərən aşkar əlamətlər və bəzi həlli çətin problemlər var. Bunları qruplaşdıraraq nəzərdən keçirək.

### Alternativ enerjiyə nə dərəcədə ümid edə bilərik?

Yaşıl enerji 2 ana qrupa bölünür;

Bərpaolunan təbii enerji qaynaqları- günəş, külək və su enerjisi və s. Yetişdiriləbilən və dəyişdiriləbilən enerji qaynaqları- bitkilərdən, tullantıların yandırılmasından alınan enerji və s.

2-cidən başlayaq. ABŞ-da bioyanacaqdan əldə edilən enerjinin payı 5 faizdir. Digər ölkələrdə də bundan yüksək deyil. Əlbəttə, bu payın artmasına nail olmaq olar, lakin bu halda qlobal qida zəncirində ciddi problemlər yarana bilər. Qida üçün olan məhsulların əhəmiyyətli bir hissəsi enerjiyə yönəldilsə, onsuz da 1 milyard acın olduğu dünyada fəlakət yaranar. Enerji istehlakını ödəmək üçün dünyadakı əkinlərin təxminən yarısını buna ayırmaq lazım gələr və insanların yarısı ac qalar. Üstəlik, bu proses qlobal iqlim dəyişikliyinin sürətlənməsinə səbəb olar. Yeni əkin sahələrini dövriyyəyə qatmaq üçün meşələrin qırılması lazımdır. Bioyanacaq ənənəvi mineral yanacaqları əvəz etmək gücündə deyil, məsələn, iri gəmilər və təyyarələrə, nəhəng zavod qurğularına lazımi güc verəcək enerji sıxlığına malik deyillər.

Bioyanacaq həcminin bir hissəsi heyvanlardan əldə edildiyini nəzərə alsaq, bu enerjinin payını artırmaq üçün heyvandarlıq sektoru kəskin artırılmalıdır. Hazırda dünyada saylarını süni şəkildə artırıb 70 milyard başa çatdırdığımız ev heyvanı var ki, onların havaya buraxdığı metan qazı ciddi zərər verir. Tullantıların yandırılması da verdiyi xeyirdən daha çox zərər verir, atomosferə zərərli tullantıların emissiyası kəskin artır və bu da ağır xəstəlikləri və ekoloji problemləri artırır. Beləliklə, tullantıların yandırılması və bioyanacağın qlobal enerji tələbatının az bir hissəsini belə ödəyə bilməyəcəyi aşkardır. 1-ci enerji qrupuna gəldikdə, bəs külək, günəş və su enerjisindən istifadənin hansı fəsadları var? Gəlin baxaq.

- Günəş enerjisi. Planetimizə Günəşdən hər saniyə 173 min teravatt enerji qəbul olunur. Dünyanın illik enerji istehlakı isə 25 teravatdır. Deməк Günəş enerjisindən istifadə edilsə dünyanın enerji təlabatının minlərlə qatını əldə etmək olar. Lakin burada da "əmma"lar var. Əvvəla, Günəş olmadıqda enerji istehsalı olmur və bu sabit enerji qaynağı deyil. Lakin, daha əsas bir problem də var- Günəş panellərinin istehsalı zamanı zərərli qazlar ortaya çıxır ki, onların da ən təhlükəlisi nitrogen trifluoriddir ($NF_3$). Bu, karbon-dioksiddən ($CO_2$) 17 min dəfə daha güclü zəhərli qazdır! Atmosferdə qalma müddəti isə 700 ildən çoxdur. 1992-ci ildə atmosferdə cəmi 100 ton $NF_3$ qazı var idi, 2010-ci ildə bu rəqəm 10 min tona yaxın oldu və ildə də 10 faiz də artır. Dünya üzrə bütün yarımkeçiricilərdə və nazik ekranların istehsalında istifadə olunan bu qazın miqdarı haqda beynəlxalq təşkilatlar statistik məlumatları açıqlamağı dayandırıblar və problemin dəhşətli bir vəziyyətə gəldiyi bəşəriyyətdən açıq-aşkar gizlədilir. Müstəqil tədqiatçılar bu rəqəmin 20 min tonu keçdiyini güman edirlər. Bu artıq fəlakətə yaxın vəziyyətdir və Günəş panellərinin perspektivini məhv edir, əlbəttə tamamilə başqa texnologiyada yaradıla bilməsə.

- Hidroelektrik enerjisi. Bu elektrik istehsalında ən təhlükəsiz, az xərcli və effektiv görünür. Lakin su elektrik stansiyaları yaradıldıqları ərazidə ekosistemə zərər verir, təbii balansı və su dövriyyəsini pozur, nəticədə dolayı problemlərin yaranmasına gətirib çıxarır. Üstəlik, əksər hallarda bu siyasi gərginliyə, hətta hərbi qarşıdurmalara gətirib çıxarır. Çünki, çayların çoxu tranzitdir və bir neçə ölkənin ərazisindən keçir. Birinin bu çaydan özü üçün istifadə etməsi digərlərinə problem yaradır və ciddi narazılıqlar yaranır. Bundan başqa qlobal quraqlıqla bağlı çaylarda su azalır, bir çox kiçik çaylar quruyur və elektrik sitehsalı da azalır. Beləliklə, SES-lərin də strateji planda mükəmməl çıxış yolu olmadığı aydın olur.

- Külək enerjisi. İlk baxışda bərpaolunan və sadə yolla əldə olunan təbii enerji qaynağıdır. Lakin bu qurğunun yaradılması baha başa gəlir, istifadə müddəti bitdikdən sonra utilizasiya edilməsi də xərc tələb edir. Üstəlik, karbon tullantıları yaradır. Dünyanın külək enerjisi potensialı 80 teravata yaxındır ki, bu tələbatdan 3 dəfə çoxdur. Lakin bu enerjinin çox azından istifadə etmək mümkündür və bu turbinlər bir-birindən xeyli aralı yerləşdirilməli olduğundan həddən artıq böyük əraziləri tutur. Üstəlik, külək olmadıqda enerji istehsalı olmur və bu sabit enerji qaynağı deyil.

- Digər alternativ enerji qaynaqları. Bu enerji növlərinin problemlərindən biri də odur ki, onların yaranması üçün əlavə enerji sərfinə ehtiyac var. Məsələn, su ilə işləyən hidrogen mühərrikli maşınlar üçün istehsal olunan hodrogen molekullarının istehsalı onun verəcəyi enerjidən daha çoxunu sərf etməklə əldə olunur. Bunun səbəbi hidrogen qazının çox güclü təzyiqlə mayeyə çevrilməsi və sonra yenə böyük təzyiqlə soyudulmasıdır. Çıxış yolu kimi həddən artıq baha başa gəlməsinə və təhlükəli olmasına rəğmən yaşıl hidrogen adlandırılan enerji qaynağı göstərilir, lakin bu geniş bir movzu olduğundan ayrıca yazıda toxunacağıq.

### Enerji istehsalını artırmaqdansa istehlakçını azaltmaq yaxşıdır

Bu əsrdə karbohidrogen resursları tükənəcək. Yaşıl enerji növləri dünyanın tələbatının müəyyən qədərini ödəyə bilər, lakin getdikcə artmaqda olan enerji tələbatı problemini həll edə bilməz. Çıxış yolu kimi enerji istehsalının artması ilə yanaşı enerji istifadəsinin azaldılması da vacibdir. Dünyada həyatın təbliğ olunan forması istehlakçı çılığınlığı, ultrakomfort həyat tərzi, yüksək israfçılıqdır. Bu halda enerji tələbatını ödəmək o qədər də asan olmayacaq.

Kapitalist sənayesi istehsal mallarında planlı köhnəltmə siyasəti yürütməklə qlobal istehlakçı kütləsi formalaşdırır və bununla həm planetin resurslarını tükəndirir, həm də insanları borclandıraraq kölə vəziyyətinə gətirir. Media və mədəniyyət sektoru da sürətli dəbdəyişdirmə siyasəti ilə onlara lazımi dəstək verir. Beləliklə, sonuncu əsrimizi vəhşicəsinə istehlak və ultrakomfort çılğınlığı ilə yaşayırıq.

Bəşəriyyətin tək bir yolu var- nəhayət normal insan cəmiyyəti yaratmaq, sadə və mütavazi həyat yaşamaq, daha çox mal-mülkə və əşyaya sahib olmamaq, yalnız ehtiyaclar qədər istehlak etmək, təbiətə zərər vurmamaq, istehsalda zərərli maddələrdən yox təbii məhsullardan istifadəyə keçmək, ekosistemi və biomüxtəlifliyi pozmamaq. Əks halda bizi heç bir qüvvə qurtara bilməyəcək. Planetimiz bizim yeganə evimiz və əvəz edilməyəcək həyat təminatımızdır. Onu vəhşicəsinə məhv etməyi dayandırmalıyıq. Bunları etməsək 21-ci əsr bəşəriyyətin sonuncu əsri ola bilər və biz təkcə özümüzün deyil, planetdəki bütün canlı aləmin məhvinə səbəb ola bilərik.

**_Elçin Bayramlı_**

# Cinsi maarifləndirmə və məlumatsızlığın nəticəsi

***Ginekoloji müayinə reproduktiv və cinsi sağlamlığı qorumaq üçün müntəzəm olaraq aparılmalı olan bir qiymətləndirmədir. Araşdırmalar göstərir ki, hər üç qadından biri mütəmadi olaraq ginekoloji müayinədən keçir, digərləri isə ümumiyyətlə şikayətləri olduqda müayinəyə gedirlər. Qadınlarda reproduktiv sağlamlıqla bağlı mənfi münasibət və davranışların formalaşmasına, müntəzəm olaraq ginekoloji müayinələrdən keçməsinə mane olan psixososial amillər var.***

Evlilikdən əvvəl hər iki tərəfin həkim müayinəsindən keçməsi və intim həyatla bağlı məsələlərdə məlumatlı olması lazımdır. Bununla, genetik yolla ötürülən xəstəliklər aşkarlana və tədbir görülə bilər.

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Reproduktiv sağlamlıq cəmiyyətlərin inkişaf meyarlarından biridir. Sağlam, gələcəyə planlı və yüksək rifahlı cəmiyyətlərin formalaşmasında reproduktiv sağlamlıq böyük əhəmiyyət kəsb edir.

Ginekologiya qadınlara cinsi və reproduktiv sağlamlığın qorunmasına yönəlmiş xüsusi tibbi yardımdır. Ginekoloji müayinə hamiləliyin aşkar edilməsinə, cinsi yolla keçən infeksiyaların və cinsiyyət orqanlarının xərçənginin (uşaqlıq boynu, yumurtalıq və s.) və digər ginekoloji problemlərin erkən diaqnostikasına və müalicəsinə imkan verir. Şikayətləri olub-olmamasından asılı olmayaraq cinsi əlaqədə olan və ya subay olan bütün qadınlar mütəmadi olaraq ginekoloq müayinəsindən keçməlidirlər.





Araşdırmalar göstərir ki, ginekoloji müayinədən əvvəl şəxsi həyatın toxunulmazlığına diqqət yetirməmək, qadınları, müayinə mövqeyini və istifadə olunan alətləri bilməmək, naməlum prosedurlar, cinsiyyət nahiyəsinin çılpaq olması səbəbindən utanma hissi, ağrı qorxusu, şəxsi təmizliyə şübhə, patoloji diaqnozun alınması ilə bağlı narahatlıq, tibb işçilərinin mənfi münasibəti, müayinə edən tibb işçisinin əks cinsdən olması, gənc yaşda olmaq, müayinə təcrübəsinin olmaması və cinsi zorakılıq kimi hallar qadınları ginekoloji müayinədən yayındırır. Bu səbəblərdən qadınların əksəriyyəti ginekoloji müayinə zamanı narahatlıq yaşayır. Bütün bu amillər fərdin sağlamlıq davranışlarına mane ola bilər.

Qadınların sağlamlıqla bağlı davranışlarına fərdi xüsusiyyətlər, sosial-mədəni quruluş, sağlamlıq inancları və yaşadıqları mühitin şərtləri təsir edir. Qadının ginekoloji müayinədən keçməsinə insanın böyüdüyü ailə, onun yaxın ətrafı, sosial quruluşu, adət-ənənələri, dini inancları və əxlaqi münasibətləri təsir göstərir. Dini qaydalar, qərəzlər, tabular, adət-ənənələr dünyada və ölkəmizdə insanların cinsi davranışında böyük ölçüdə üstünlük təşkil edib. Türk cəmiyyətində cinsəllik özlüyündə ayıb, seksuallıqdan danışmaq utanc, cinsi istək günah kimi göstərilir.

Ölkəmizdə cinsi müalicə mərkəzlərinə müraciət edən qadınlarda ən çox rast gəlinən cinsi problem vaginizmdir. Vaginizmin səbəbləri arasında: mühafizəkar ictimai quruluş, bakirəlik və namus kimi ənənəvi dəyər mühakimələri, qızlıq pərdəsinin müqəddəsliyinə və qorunmasına verilən önəm, ilk gecə qorxuları, qadınların öz bədənini tanımasına mane olan inanclar, nikahdan əvvəl cinsi əlaqəyə yol verilməməsi və qadağan edilməsi, cinsəllik qadağandır və haqqında sərbəst danışıla bilməz kimi amillərdir.

Cinsi kimliyini və varlığını hər mənada qəbul etməyən bir mühitdə böyüyən qadınlar reproduktiv və cinsi sağlamlıqlarını sorğulamaqdan çəkinir, utanırlar. Xəstəliyə görə də olsa, şəxsi hesab edilən cinsiyyət orqanını yad birinin qarşısında göstərməsi qadını sıxır və narahat edə bilər. Bu vəziyyət ginekoloji müayinəyə mane olan amillərdən biridir.

Uşaqlıqdan qızlıq pərdəsini diqqətlə qorumağı öyrədən qadın ailə quranda belə sahib olduğu bu dəyərli şeyi itirmək istəmir və bu, uzun müddət gələcək həyatına təsir edə bilər. Cinsi əlaqə ilə bağlı narahatlıq gənc qadınlarda qorxu yaradır. Gənclərin cinsi mövzularda bilik və münasibəti onların gələcək cinsi həyatına, ailə həyatına və məhsuldarlıq davranışına yaxından təsir göstərir. Bu, qadınlarda reproduktiv sağlamlıqla bağlı mənfi münasibət və davranışların formalaşmasına və ondan uzaq durmasına səbəb olur.

Subay qadınların cinsi və reproduktiv sağlamlıq haqqında kifayət qədər məlumatının olmaması, maddi imkanlarının yetərincə olmaması, təkbaşına səhiyyə müəssisəsinə müraciət edə bilməməsi, ailəsindən və ya qonşularından böyüklər tərəfindən görülməkdən qorxması, klinika işçiləri tərəfindən tənqiddən çəkinməsi və tibb işçilərinin münasibət və təcrübələri onların reproduktiv sağlamlıq xidmətlərindən faydalanmasına mane olur. Bunlar ginekoloji müayinənin qarşısını alan mühüm amillərdir.

## Cinsi maarifləndirmə və məlumatsızlıq

Türk cəmiyyətində cinsi problemlərin ən əhəmiyyətli qaynağının cinsi təhsil və məlumatsızlıq, ön mühakimə olduğu göstərilir. Məktəb yaşından başlayaraq geniş yayılan reproduktiv və cinsi sağlamlıq maarifləndirilməsinin olmaması kimi səbəblərdən ölkəmizdə seksuallıq sahəsində ciddi informasiya çatışmazlığı mövcuddur. Dünyada və ölkəmizdə aparılan araşdırmalar göstərir ki, yeniyetmə və gənclərin cinsi/reproduktiv sağlamlıq haqqında kifayət qədər məlumatı yoxdur və onların məlumat mənbələri dostlar, ailə və mediadır. Dostların mühüm məlumat mənbəyi olması dezinformasiyanın ağızdan- ağıza yayılmasına səbəb olur. Bundan əlavə, valideynlər cinsi tərbiyə ilə bağlı formal təlim almadıqları üçün kifayət qədər məlumata malik deyillər. Ailə daxilində başlanması gözlənilən reproduktiv və cinsi sağlamlıq maarifləndirilməsi, valideynlərin bu mövzuda kifayət qədər məlumatı olmadığından yarımçıq qalır. Qadınların çoxu evdə və məktəbdə sağlam cinsi və reproduktiv sağlamlıq təhsili almadıqları üçün onların biliklələri çox məhduddur və əksəriyyəti yanlışdır.

## Cinsi təcavüz və zorakılıq

Cinsi həyat qarşılıqlı etibar, öhdəlik və paylaşma üzərində qurulmalıdır. Uşaqlıq və sonrakı dövrlərdə cinsi istismara və intim partnyorun zorakılığına məruz qalan qadınların ginekoloji müayinədən yayındıqları müəyyən edilib. Onlar müayinə zamanı daha çox xəcalət, narahatlıq, qorxu və ağrı hissləri yaşayırlar.

## Gizlilik və utanc hissi

Dünyanın harasında olursa olsun, cinsi orqanlar "özəl" olaraq qəbul edilir və xüsusi məna daşıyır. Ümumiyyətlə, ginekoloji müayinə zamanı yaranan narahatlığın əsası şəxsi orqanların həkimə məruz qalması narahatlığıdır.

## Qadın üçün nikahdan əvvəl lazım olan yoxlamalar

Qadın ilk menstruasiya başladıqdan sonra 6 aydan bir müntəzəm olaraq ginekoloq müayinəsindən keçməlidir. Burada qadınları iki yerə bölmək lazımdır. Birinci əvvəllər cinsi əlaqədə olmayan qadınlar. İkincisi, cinsi fəaliyyətə başlayan, yəni evlənəcəyi şəxslə və ya başqası ilə cinsi əlaqədə olan qadınlardır.

Cinsi fəaliyyətə başlayan qadınlar hər 6 aydan bir mütəmadi olaraq ginekoloqa getməli, müayinələrdən keçməli, uşaqlıq boynu xərçəngi üçün Pap-smear testi etdirməli və bütün qadınlar kimi yoxlanılmalıdır. Əgər nikahdan dərhal sonra uşaq planlaşdırılıbsa, həkimin 3 ay öncədən tövsiyə etdiyi bəzi əlavə analizlər və vitamin preparatları lazımdır.

## Hansı testlər aparılmalıdır?

Evlilikdən əvvəl həm kişilər, həm də qadınlar cinsi əlaqə və qan yolu ilə keçən QİÇS, Hepatit B və Hepatit C testlərindən keçməlidir. Məlumdur ki, ölkəmizdə bu testlər nikah müraciəti üçün Asan Xidmət Mərkəzlərinə müraciət etdikdə tətbiq olunur.

## Kişilər hansı sağlamlıq müayinələrindən keçməlidirlər?

Əgər kişinin problemi varsa, məsələn, ereksiya və ya ifrazat problemi varsa, o zaman mütləq uroloqa getməli və müayinə olunmalıdır. Bunun xaricində gələcək həyat yoldaşı ilə birlikdə müayinə olunmaq və ailə planlaması və ya cinsi problemlər haqqında fikir sahibi olmaq vacibdir. Kişi bu mövzuda şüurlu hərəkət edərsə, gələcəkdə yarana biləcək neqativ halların qarşısını alacaq.

**Cərrah, mama-ginekoloq Ləman Əliyeva:** "Evlənmədən öncə ginekoloji müayinənin iki növü var. Birincisi məcburi olandır ki, bu "Asan Xidmət" Mərkəzlərində olur. Biri də var ki, məcburi deyil. Lakin biz onu da məsləhət edirik ki, hər kəs keçsə daha yaxşı olar. Məsələn, xanımlar var ki, ömründə bir dəfə yoxlanışa getməyib. Elə qadın varki, 16 yaşına qədər menstrurasiya olmayıb və həkimə müraciət etməyib. Ona görə ginekoloji müayinə çox vacibdir".



Türk həkim Sevinç Bilgin Soran dərhal uşaq sahibi olmağı planlaşdırmayan cütlüklərin qorunma üsulları ilə bağlı bu məlumatları verib: "Hamiləlikdən qorunmaq vacibdir. Cütlərə evlənməzdən 3 ay əvvəl müayinədən keçmələrini söyləməyimizin səbəblərindən biri də budur. Çünki həmin cütlük üçün ən sağlam kontrasepsiya üsulunun hansı olacağı, onların əvvəllər və ya irsi xəstəlikləri olub-olmaması kimi suallar vacibdir. Məqsədimiz planladıqları zaman bütün ailələrin sağlam uşaq sahibi olmasını təmin etməkdir. İstəmirik ki, arzuolunmaz hamiləliklər abortla bitsin. Hər şey planlı şəkildə olarsa, həm gələcəkləri, həm də xoşbəxtlikləri üçün problem daha az olur. Əvvəllər uşaq sahibi olmayan cütlüklərə tövsiyə etdiyimiz ilk nəzarət üsulu, istifadəsi olduqca sadə olan doğum nəzarət həbləridir. Bu həblərin yan təsirləri azdır və yüksək qorunma var. Təbii ki, bu həblərdən istifadənin ilk aylarında zaman-zaman onlara öyrəşməkdə problemlər yarana bilər. Və ya bəzi qadınlar bu həblərin yan təsirləri ilə qarşılaşa bilərlər. Bu səbəbdən, toy tarixindən iki ay əvvəl doğum nəzarət həblərinə başlamağı məsləhət görürük".

Evlilik öncəsi tibbi testlərin çox əhəmiyyətli olduğunu bildirən Soran, "Gənc qadının evlilikdən əvvəl cinsi həyatı varsa, ginekoloqa müraciət etməli, ümumi pap-smear testi və müayinələrdən keçməli, doğuşa nəzarət üsulları haqqında məlumat almalıdır. Bundan əlavə, onlara ideal ana olmaq yaşı və hamiləliyin planlaşdırılması barədə məlumat verilməlidir. Ailə həyatına qədəm qoymağa hazırlaşan gənc qızlar yeni həyata hazırlanmalı, eyni zamanda cinsi yolla keçən xəstəliklər, normal fiziologiya, onlara uyğun olan doğuşa nəzarət üsulları haqqında məlumatlandırılmalıdır.

Nikahdan əvvəl məsləhət alacaq cütlüklər normal anatomiya və fiziologiya haqqında məlumatlandırılmalıdır. Lazım olduqda bu yardım psixoloq tərəfindən yönəldilməlidir.

***Ayşən Vəli***

# Elektron siqaret-ətirli ölüm



***Əgər tütün qara, narkotik ağ ölümdürsə, elektron siqaret isə ətirli ölümdür. Hazırda məktəblilərdən tutmuş tələbələrədək, əksər gənclərin meyl etdiyi bu bəla heç də elektron siqaret istehsalçılarının özlərinə haqq qazandırıcı sayıqlamalarındakı kimi təhlükəsiz deyil, ənənəvi siqaret və narkotik qədər ziyanlı, sağlamlığa zərər vuran, ətri ilə insanı aldadan, zaman-zaman məhvinə aparan bir vasitədir.***

Bunu anlamaq və dərk etmək o qədər çətin deyil ki, ənənəvi siqaret çəkənlər kimi, elektron siqaret çəkənlər də ya hansısa orqanlarının sıradan çıxmasına, ya da birbaşa ölümə doğru irəliləyirlər.

Bütün dünya elektron siqaretlərin zərərindən danışsa da, mətbuat bar-bar bağırsa da, lakin bu vasitədən istifadə edənlərin sayı azalmır ki, gündən-günə artır. Sanki insanlar üçün həyatlarının heç bir dəyəri qalmayıb. Harada bitər, bitər...

Maraqlıdır ki, həm də elektron siqaret də adi siqaret kimi bir çoxları üçün dəbli görünüş yaratmaq anlamındadır. Siqareti barmaqlar arasına almaq onların düşüncələrinə görə geyimi tamamlayır, barmaqlar arasında dodaqlara yaxınlaşdırmaq onları fərqli birinə çevirir, tüstülətmək dəbli olmalarına dəlalət edir. Təəssüf ki, bu düşüncədə olan gənclərimiz az deyil.

O da var ki, bəzi ənənəvi siqaret çəkələr guya elektron siqaretdən istifadə etməklə onu tərgitməyə çalışırlar. Bu, nə dərəcədə düzgün seçimdir, bu və elektron siqaretin digər zərərləri haqqında danışaq.

## İstehsalçıların iddialarının əksinə

Elektron siqaret ideyası keçən əsrin 70-ci illərində ortaya çıxdı. Uzun müddət müzakirə mövzusu oldu, yalnız keçən əsrin sonunda kütləvi istehsala buraxıldı. Əvvəllər mağaza piştaxtalarında az-az görünən, hazırda isə qəzet köşklərində, market və hətta aksesuar satılan dükanlarda belə rast gəlinən bərbəzəkli, rəngbərəng elektron siqaretləri istehsalçılar tütün məhsulları ilə mübarizə yollarından biri hesab edirlər: elekt-



ron siqaretin xüsusi hazırlanmış tüstüsü var. Onun tüstü vermə effekti öz xüsusiyyətlərinə görə seçilir. Belə ki, elektron siqaretdə yanma prosesi olmur və bu səbəbdən ziyanverici qazlar buraxmır. Həmçinin, onun tərkibində tənbəki yoxdur.

Lakin Türkiyənin Memorial Tibb Heyətinin araşdırmalarına əsasən elektron siqaret tərkibində nikotin olan mayenin qızdırılması və aerozol əmələ gəlməsi ilə əldə edilən kiçik, əl elektron cihazıdır. Bu cihazın tərkibində maye nikotin var və elektron siqaretdən istifadə edən insanlar cihazdakı maye nikotini və buxarını ağciyərlərinin dərinliklərinə qədər çəkirlər. Bu, ağciyərin çökməsi kimi ciddi xəstəliklərə və tənəffüs problemlərinə səbəb ola bilər. Bundan əlavə, elektron siqaretlərin tərkibində diasetil, nikel, qalay və qurğuşun kimi bədənə zərər verə biləcək zərərli maddələr var.

Deməli, siqaret asılılığını yaradan nikotindir. İddiaların əksinə olaraq tərkibində nikotin olan elektron siqaret qətiyyən siqaret asılılığını həll etmir. Elektron siqaretdə istifadə olunan aromatik maddələrə gəldikdə isə həmin maddələrin özlərinin də kanserogen təsiri var. Yəni elektron siqaretlər faktiki olaraq adi siqaretlərdən öz zərərinə görə elə də geri qalmır. Elektrikli siqaretin zərərləri aşağıdakılardır:

-EVALI və dil xəstəliyini yaradır;
-Ağciyər kollapsına səbəb ola bilər;
-Elektron siqaret asılılıq yaradır;
-Tənəffüs yollarına təsir edir və öskürəyə səbəb olur;
-Astma inkişafına təkan verir;
-Ağızda və boğazda qıcıqlanmaya səbəb olur;
-Elektron siqaretlər ürək xəstəliyi riskini artırır;
-Baş ağrısı və ürək bulanmasına səbəb olur;
-Beyin inkişafına təsir göstərir;
-Popkorn xəstəliyi yaradır;
-Sonsuzluğa səbəb olur;
-Hamiləlik dövründə körpənin inkişafına təsir göstərə bilir.

## Elektron siqaret xəstəliyi- EVALI

Kəskin ağciyər zədələnməsinə, ağciyərlərdə iltihaba səbəb olan iltihabi xəstəlik olan EVALI xəstəliyinin əsas səbəbi elektron siqaretdən istifadədir. Bu xəstəlik ağciyər kollapslarına, həmçinin ağciyərlərdə çapıqlara, asılılığa, tənəffüs yollarına təsir edərək öskürəyə, ağızda qıcıqlanmaya səbəb ola bilər. Bununla birlikdə, elektron siqaret istifadəçilərində dadbilmə duyğusunun azalması ilə dil xəstəliyi də yarana bilər.

Elektron siqaretlər də siqaret kimi tənəffüs yollarına mənfi təsir göstərir. Tənəffüs yollarına mənfi təsirlər də öskürəyə səbəb ola bilər

Həmçinin astma və digər ağciyər xəstəlikləri riskini artıra və mövcud astmanı pisləşdirə bilər.

## Elektron siqaretlər ürək xəstəliyi riskini artırır;

Elektron siqaretlərin tərkibində olan nikotin və digər zərərli maddələr ürəyə zərər verə bilər və ürək xəstəlikləri riskini artırır. Eyni zamanda baş ağrısı və ürək bulanmasına səbəb olur.

## Elektron siqaretlər beynin inkişafına təsir edir;

Elektron siqaretlərin yaratdığı nikotin asılılığı emosional pozğunluqlara səbəb ola bilər və beynin öyrənməyə nəzarət edən hissələrinə zərər verə bilər. Xüsusilə yeni-



yetməlik dövründə gənclərin beynində qərar qəbul etmə və impulslara nəzarət hələ inkişaf etmədiyi üçün nikotindən daha çox istifadə ehtimalları yüksək olur. Gənclərin nikotinə məruz qalması uzunmüddətli perspektivdə ciddi risklər yaradır.

## Elektron siqaretlər "popkorn xəstəliyi"nə səbəb ola bilər;

Elektron siqaretlərin zərərli təsirlərindən biri də "popkorn xəstəliyi" kimi tanınan "bronxiolitis obliterans"dır. Elektron siqaretlərin tüstüsü ağciyərlərdə hava kisələrini qoruyan makrofaqların fəaliyyətini poza və onların zədələnməsinə səbəb ola bilər. Bu, nəfəs darlığına və öskürəyə səbəb ola bilər ki, bu da popkorn adlı ağciyər xəstəliyinə səbəb olur. Popkorn ağciyər xəstəliyi qızdırma, öskürək, gecə tərləmələri, kilo itkisi və nəfəs darlığı kimi əlamətlərlə ortaya çıxır.

***Ardı Səh. 11***

ARAŞDIRMA



## Mətbuat Şurası əməkdar jurnalist Ramiz Əskərin vəfatı ilə bağlı nekroloq yayıb

Azərbaycan Mətbuat Şurasının İdarə Heyəti əməkdar jurnalist, yazıçı, publisist Ramiz Əskərin vəfatı ilə bağlı nekroloq imzalayıb. Sənəddə deyilir: "Azərbaycan jurnalistikasına, elm ictimaiyyətinə, bütövlükdə ziyalı mühitinə ağır itki üz verib. Respublikamızın əməkdar jurnalisti, yazıçı, publisist və alim Ramiz Əskər dünyasını dəyişib. Mərhumun ailə üzvlərinə, doğmalarına və əzizlərinə dərin hüznlə başsağlığı veririk. 1954-cü ildə Gümrünün Amasiya rayonuna bağlı Qaraçanta kəndində (Ermənistan ərazisi) doğulmuş R.Əskər 1972-ci ildə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil olub. 1975-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsinə keçib və 1978-ci ildə həmin ali təhsil ocağını bitirib.

1978-1983-cü illərdə "Azərbaycanın Səsi" radiosunda işləyib. 1983-1984-cü illərdə Azərbaycan, türk, ərəb, fars, ingilis, fransız və alman dillərində çıxan "Azərbaycan bugün" jurnalının baş redaktoru olub.1984-1991-ci illərdə latın, kiril və ərəb əlifbaları ilə işıq üzü görmüş "Odlar yurdu" qəzetinin baş redaktoru vəzifəsini tutub. 1991-1993-cü illərdə Türkiyənin "Hürriyet" qəzetinin və Uluslararası Haber Ajansının (UHA) Azərbaycan üzrə müxbiri olub. 1993-1997-ci illərdə "Yeni Forum" jurnalının (Ankara) təmsilçisi kimi fəaliyyət göstərib. 1993-1994-cü illərdə Xarici Turizm Şurasının idarə rəisi işləyib. 1994-1996-cı illərdə "XXI əsr" qəzetinin baş redaktoru, 1992-1997-ci illərdə Azərbaycan Jurnalistlər Birliyinin katibi kimi çalışıb.

R.Əskər, həmçinin, 2003-2006-cı illərdə Bakı Dövlət Universitetindəki Türkologiya kafedrasında işləyib, azərbaycanca və rusca Türk mədəniyyət tarixi, Türkologiyanın əsasları, "Divanü lüğat-it-türk", "Kitabi-Dədə Qorqud", "Qutadğu Bilig", "Manas" dərsləri deyib. 2007-2012-ci illərdə filologiya fakültəsində bədii tərcümə elmi-tədqiqat laboratoriyasının müdiri olub. 2012-ci ildə türk xalqları ədəbiyyatı kafedrasının, 2016-cı ildə isə türkologiya kafedrasının müdiri seçilib. 2023-cü ildən Türkoloji Araşdırmalar Mərkəzinin rəhbəri olub. 80-ə yaxın beynəlxalq simproziumun və konfransın iştirakçısı olmuş R.Əskər Azərbaycanda və dünyanın müxtəlif ölkələrində çapdan çıxmış 94 kitabın, xeyli sayda tərcümənin müəllifi kimi də tanınb. O, 2010-cu ildə Əməkdar jurnalist fəxri adına, 2014-cü ildə "Şöhrət" ordeninə, 2024-cü ildə II dərəcəli "Vətənə xidmətə görə" ordeninə layiq görülüb. Ramiz Əskər 2022-ci ildə Özbəkistanın "Dostluq" ordeni ilə də təltif edilmişdi.

Zəngin, ölkəmiz, bütövlükdə türk dünyası üçün faydalı ömür yaşamış, çoxşaxəli yaradıcılıq diapazonu ilə seçilmiş Ramiz Əskərin yoxluğu son dərəcə üzücüdür. Uca Tanrıdan mərhumun doğmalarına, əzizlərinə, onu tanıyan, bənzərsiz və təkrarsız əməyinə yüksək dəyər verən hər kəsə səbr diləyir, kədərlərini bölüşürük.

***Allah rəhmət eləsin!"***

# Elektron siqaret-ətirli ölüm

Əvvəli Səh. 10

## Elektron siqaretlər sonsuzluq yaradır;

Elmi araşdırmalara görə, elektron siqaretlər kişilərdə sperma sayının azalmasına səbəb ola bilər. Bu, uşaq düşünən cütlərə mənfi təsir göstərə bilər. Həmçinin elektron siqaretlər yumurtanın keyfiyyətinə də təsir edə bilər və sonsuzluğa siqaret çəkməyənlərlə müqayisədə 10 dəfə artıq səbəb olur. Bundan əlavə, qadınlarda erkən menopoz və vaxtından əvvəl düşük riskini artıra bilər.

## Elektron siqaretlər hamiləlik dövründə körpənin inkişafına mane olur;

Hamiləlik dövründə elektron siqaret istifadəsi ana üçün təhlükəsiz olmamaqla yanaşı, həm də körpənin beyin inkişafına mənfi təsir göstərə və orqanlara qalıcı ziyan vura bilər. Eyni zamanda, hamiləlik dövründə çəkilən elektron siqaretlər körpənin ağciyərlərinin inkişafına mane ola və doğuşdan sonra xəstəliklərə səbəb ola bilər.

## Elektron siqaret asılılıq yaradır;

Elektron siqaretlərin tərkibində adi siqaretlər kimi nikotin olduğu üçün onların asılılıq təsiri kifayət qədər yüksəkdir. Nikotin beyində dopamin ifrazına səbəb olaraq mükafat sistemini aktivləşdirir və həzz verir. Elektron siqaretdən istifadə edən insanlar onun zərərlərini və yaratdığı yüksək riskləri bilsələr də, istifadə etməyə davam edirlər. Bu, asılılığa səbəb ola bilər.

## Elektron siqaret xərçəng xəstəliyi yaradır;

Elektron siqaretlər, kimyəvi maddələr və hissəciklər səbəbindən astma və xroniki ağciyər xəstəliklərinə görə ağciyər iltihabına səbəb olur. Bu da DNT-nin zədələnməsinə səbəb ola bilər və uzun müddətdə xərçəng riskini artırır. Elektron siqaret buxarı da ağciyər mühitində immun hüceyrələrinə mənfi təsir göstərərək ağciyərin iltihabına səbəb ola bilər.

Mütəxəssis həkimlər vurğulayır ki, 10 il ərzində siqaret çəkən qadınların tibbi müayinələrinin nəticələrinə əsasən, onların siqaret çəkməyən qadınlara nisbətən 25 dəfə artıq ağciyər xərçəngi xəstəliyinə tutulması aşkarlanıb.

## Elektron siqaret ürəyə zərər verir;

Elektron siqaretdən istifadə edən insanlarda koronar arteriya xəstəliyi, depressiya və infarkt riski yüksək ola bilər. İstifadə etməyənlərlə müqayisədə, insult keçirmə və ya infarkt keçirmə kimi problemlər elektron siqaretdən istifadə etdikdən sonra arta bilər.

## Elektron siqaret dişlərə zərər verir;

Elektron siqaretlər dişlərdə bakteriya artımına, ağızda quruluğa, diş ətlərinin iltihabına, ümumi qıcıqlanmaya və hüceyrə ölümünə səbəb ola bilər. Bundan əlavə, elektron siqaretlərin tərkibindəki mayelər ağız quruluğu və ağız yaraları yaradır. Elektron siqaretlər həmçinin ağız və boğazın qıcıqlanmasına, diş ətlərində şişlik, həssaslıq və qızartıya yol açır.

## Elektron siqaretlər körpələri zəhərləyir;

Elektron siqaret istifadəsinin 1219 fərqli gendə fərqliliklərə səbəb olduğu göstərilib. Araşdırmaya görə, elektron siqaret çəkilən yerlərdə tüstünün 2-3 yaşlı körpələrdə zəhərlənmələr yaratdığı görülüb.

Elə bütün bu zərərli tərəflərinə görə, bəzi ölkələr elektron siqaretlərin idxalını və satışını qadağan edib. Hətta baxmayaraq ki, elektron siqaretlər əsasən Çində istehsal olunur, burada onun istifadə edilməsi qadağan olunub. Azərbaycanda da deputatlar milli məclisdə bu məsələni müzakirə edib, elektron siqaretlərin ölkədə istifadəsinin qadağan edilməsinin tərəfdarı olduqlarını bildiriblər.








Bu məsələlərin ciddiliyi nəzərə alınaraq ölkəmizdə "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanun qüvvəyə minib. Qanunu pozanların 30 manatdan 1000 manata qədər cərimə olunması müəyyənləşdirilib. Qanuna əsasən, tütün məmulatlarından (siqaret), sulu qəlyan və elektron siqaretdən istifadə müəyyən yerlərdə qadağan olunub.

## Siqaret çəkmədə qadın amili

Həm ənənəvi, həm də elektron siqaretin həm kişilər, həm də qadınlar tərəfindən çəkildiyini nəzərə alaraq qeyd edək ki, kişilərin siqaret çəkməsi nə qədər təhlükəlidirsə, qadınların ondan istifadəsi qat-qat təhlükəlidir. Çünki qadın gələcəyin anasıdır. O, dünyaya uşaq gətirəcək. Ana nəsil artırandır. Gələcək nəsillərin sağlamlığına birbaşa cavabdeh şəxsdir. Bəs belə isə, ana olacaq qadın əgər siqaret çəkirsə, onun sağlam övlad həyata gətirməsi mümkündürmü?

Araşdırma apararkən belə bir maraqlı faktla da rastlaşdım: Harvardda aparılan tədqiqat nəticəsində bəlli olub ki, hamiləlik dövründə siqaret çəkən qadınların dünyaya gətirdikləri uşaqlar cinayətə qarşı daha çox meylli olurlar. Tək bu fakt siqaretin tərkibini, onun nələrə qadir olduğunu göstərmirmi? Baxın ki, siqaretin qanda yaratdığı zəhərlənmələr dölə necə təsir edirsə, onun gələcək həyatında cinayətə meyllik yaranır. Həqiqətən çox maraqlı nüansdır. Siqaret çəkənlərin bəlkə də hansına sual versən ki, övladının gələcəkdə cinayətə meylli olacağını bilirsənmi, adama gülərlər. Lakin elm bunu sübut edir və bu, qaçılmazdır.

Hələ də aramızda bu qanuna zidd gedən insanlar var ki, onlarla hər kəs qarşılaşıb. Bələləri haqqında tədbirlər görülür. Lakin onlar gözdən uzaq yerlərdə məqam düşən kimi ətrafa tüstü yayırlar. Çox təəssüf, onlar arasında sürücülər də var ki, bəzən taksidə utanmazcasına səndən "siqaret çəkə bilərəmmi?",- deyə soruşurlar...

Nə qədər ki, hələ də qanundan xəbərsiz insanlar var, onlar cəmiyyət arasında özlərini lazımi səviyyədə apara bilməyəcək və bizlər də passiv siqaret çəkən olaraq qalacağıq.

## Gəncliyi ətirli ölümdən qoruyaq!

Siqaret çəkmək alışqanlığı əsasən gənclikdən başlanır. Bu bəlaya gənclikdə düçar oldunsa, səninlə bir ömür yol gedəcək və yaşlı çağlarında elə bir problemlə üz-üzə qoyacaq ki, nə ondan əl çəkə biləcəksən, nə də yaşamaqdan vaz keçə biləcəksən. Ölümlə olum arasındakı məsafədə isə siqaret çəkmək yaşamağa üstün gələcək. Beləliklə, xəstə kimi yaşayıb ölümünü gözləyəcəksən, çünki gənclikdən başlanıb gələn alışqanlığından əl çəkə bilməyəcəksən. Buna iradən yetməyəcək.

Gənclik çağında övladlarımızı həm biz valideynlər, həm də cəmiyyət qorumalıdır. Çünki siqaretlə insan arasında qısa bir yol var. O yolda siqaret səni üstələdisə, səninlə bir ömür yoldaşdır. Yox, əgər sən ona üstün gəldinsə, deməli, bir ömür sağlam həyat səni gözləyir. Beləliklə evlərimizdə böyütdüyümüz xüsusilə oğlan övladlarına vaxt ayırıb onlarla söhbətlər aparmaq bizim ümdə vəzifəmizdir. Bu əsnada böyüdüyünü hiss etdirmək üçün siqaretə əl atan uşaqlarımızla o qədər səmimi söhbət qurmağı bacarmalıyıq ki, o, böyüməyin siqaretlə bağlı olması fikrinin absurd olduğunu dərk etsin. Və yaxud da yoldaşları, dostları tərəfindən "sən kişi deyilsən, niyə siqaret çəkmirsən?" təklifinin nə qədər rəzil bir təklif olduğunu onlara başa salmalıyıq.

Eləcə də məktəbdə yeniyetmə oğlan və qazlarla məktəb psixoloqları iş aparmalıdırlar. Bu kimi təkliflərin mənasız olduğunu, yaxşı dost və yoldaşın belə təklif etməsinin mümkünsüzlüyünü onların beyninə yeritməliyik. Çünki onlar həyatın astanasındadır. Nəyi neçə edəcəklərini anlamırlar. Bu yaş dövründə qorunan uşaq gələcəyə tütünsüz bir həyatla gedir. Tüstüsüz həyat isə sağlam ailə, sağlam övladlar, gözəl gələcək deməkdir.

Yox, əgər uşaqlarımızla vaxtında məşğul olmasaq, onlara vaxt ayırmasaq, qarşıda onları tüstülü bir həyat gözləyəcək. Bu isə gələcəyin qeyri-sağlam övladları, öz övladımızın isə hər an ölümü deməkdir. Ümumilikdə isə gələcək üçün xəstə ailənin təməlidir.

*P.S. Dövlət Statistika Komitəsinin 2022-ci ilə olan məlumatında elektron siqaretdən istifadə 15 yaşdan yuxarı 0,1, 20-44 yaş arasında isə 0,2 faiz , digər yaş qrupları üçün " -" kimi göstərilsə də, lakin bu, hazırda belə deyil. Bəlkə də 2023-2024-cü illər üçün müvafiq statistika açıqlanarsa, bu rəqəmlərin xeyli dəyişdiyini görmüş olarıq. Bu gün elektron siqaretdən istifadə edən yüzlərlə məktəbli, yeniyetmə, gənc var. Onları bu ətirli tüstüdə boğan kimdir? Bax, buna son qoyulmalıdır. Bəzən qadağaları və ciddi tədbirləri yaxşı qarşılamırıq, lakin son nəticəsi yanıldığımızı göstərir. Düşünürəm ki, gənclərimizi öz ətirli ağuşuna alan elektron siqaretlərə də qadağan qoyulmalı, əksini düşünənlər ciddi cəzalandırılmalıdır.*

***Mətanət Məmmədova***

# Qalstanyan sirk şousunda TƏLXƏK CİLDİNDƏ








***Erməni kilsəsinin haylar üçün baş bəlasına çevrilən ruhanisinin etdikləri, hərəkətləri, davranışları erməni cəmiyyətində müxtəlif şübhələr doğurdu və hətta ümidsizlik hissi də yaratdı. Çünki artıq ermənilər başa düşdülər və hətta əmin oldular ki, onların müstəqillik nağıllarına da, demokratiya oyunlarına da, inqilab teatrlarına da, göstərdikləri səhnəciklərə də xarici qüvvələr inanmırlar və ümumiyyətlə şübhə ilə yanaşırlar.***

## Baqrat elə təlxək obrazında da yaddaşlarda qalmış oldu

Haylar görürlər ki, kimlərinsə şou xarakterli nümayişkəranə addımlarına məhəl də qoyan yox imiş və əks halda, Baqrat Qalstanyan kimi bir hiyləgərin xeyli müddətdir oynadığı və ya alət olduğu oyuna hansısa dəstəyi müşahidə edərdilər. Artıq 20 gündən çox davam edən "etiraz hərəkatı" adlı "sirk" şousunun sonu çatdığına Baqrat özü də əmindir, erməni cəmiyyəti də. Erməni cəmiyyəti həm də ona əmindir ki, bütün bunların arxasında duran Qarabağ klanının rəhbərləri və eləcə də Ermənistandan kənarda olan qüvvələrdir, hansı ki, Qalstanyan kimisi onların barmaq işarəsi ilə özünü marionet olaraq aparır və hətta özünü təlxəkliyə də qoyurdu. Bəs bütün bunların ardınca özünü yenidən arxiyepiskop kimi, ruhani lider kimi necə apara bilər bundan sonra, deyə düşünməkdə hər halda, hər kəs haqlıdır.

Bəli, Baqrat Qalstanyan onların, öz ağalarının, məhz Qarabağ klanı rəhbərlərinin, cinayətkar rejimin, Ermənistandan kənardakı həmin o revanşistləri idarə edən qüvvələrin ümidlərini qətiyyən doğrultmadı. Əksinə, Qalstanyan bütün kartlarını da yandırmış oldu. Çünki onun oynadığı, alət olduğu, təlxəkliyi üçün qurulan teatr şousu, "sirk" üçün ayrılan zamanı da, zəhməti də, vəsaiti də puç etdi və indi hətta özü belə bu baxımdan kimlər üçün isə hədəfdə ola bilər. Baqrat Qalstanyan ona tapşırılan rolunu oynaya bilmədi, çünki əvvəla siyasətdən çox uzaq, naşı bir adam olduğu üçün teatrı şousunda aktyorluqla təşəxkliyi qarışdırmış oldu və digər tərəfdən də onun heç bir nüfuzunun olmaması fonunda hansısa nəticəyə ümid etməsi də axmaqlıq kimi göründü, hansı ki, bunu da onun ağaları nəzərdən qaçırmadılar. Elə buna görə də Baqrat elə təlxək obrazında, təlxək cildində də yaddaşlarda qaldı.

## Qalstanyanın təlxəkliyi elə onun özünə qaldı

Doğrudur, xalqı idarə etmək, bir araya toplamaq üçün xalqın içindən çıxmaq tələb olunur, yaxud da, heç olmasa, xalqın nüfuzunu qazanmış birinin olması gərəkir ki, sözü dinlənilsin. Ola bilsin ki, nə zamansa bir ruhani lider kimi Baqrat Qalstanyanın əhalinin bəlli hissəsinin, məlum kəsiminin arasında müəyyən qədər, yəni az da olsa nüfuzu ola bilərdi. Amma artıq haylar özləri də əmindirlər ki, ən az sayda insanlar arasında belə Baqrat haqqında hansısa bir nüfuzdan artıq danışmaq gülün olar. Çünki hamı bilir ki, o özünü təlxəkliyi ilə nüfuzdan salmış oldu. Özünü məhz daxili siyasi meydanda Paşinyanı devirə biləcək bir qüvvə olaraq meydana atan kimi sırımağa çalışan birinin sonda çarəsiz vəziyyətdə qalmasından sonra barəsində çarəsizin biri olmasından başqa daha nə düşünmək olar axı?

Heç də təmiz reputasiyası, tərcümeyi-halı olmayan birinin, yəni Qalstanyanın onsuz da xalq arasında, erməni xalqı arasında nüfuzu yox dərəcəsində idi. Üstəlik özünü təlxəkliyə qoymaqla bir daha xalqın gözündə mahiyyətini tamamilə heçə endirdi. Haylar gördülər ki, onun səsinə nəinki səs verilmədi, heç məhəl də qoyulmadı. Soruşmaq ayıb olmasın, erməni lobbisi, erməni diasporu, ələlxüsus da erməni kilsəsinin qalan başbilənləri niyə "əl" üzatmadı ona? Deməli, onun bir heç olduğu, ancaq bir təlxək cildində ortaya çıxdığı qənaətinə çoxdan gəlinmişdi. Sadəcə olaraq, bu vaxta qədər müəyyən imkanlar, vaxt verilmişdi, amma bu vaxt da onun əlindən artıq çıxmış olur. Belə çıxır ki, təlxəkliyi özünə qalır.

## Hansısa nəticəyə ümid etmələrinin axmaqlıqdan başqa bir şey olmadığını söyləməkdə haqlıyıq

Onu da xatırlatmaq yerinə düşərdi ki, bütün sadalananlardan əlavə, Qalstanyanın Robert Köçəryan və onun adamları ilə əlaqələri açıq-aşkar şəkildə ortaya çıxdı və o, dərhal, özü də ciddi şəkildə gözdən salındı. Baqrat Qalstanyanın məhz kimlərinsə aləti olduğu qəbul olundu və bir kukla, bir marionet, bir təlxək kimi yaddaşlara yazıldı. Hətta onun arxasında kimlərin dayandığını bilən erməni cəmiyyətində ona qarşı nifrət hissi belə formalaşdı. Özü də çox böyük bir dərəcədə formalaşmış oldu, çünki haylar artıq bildilər ki, Baqratı oynadıb bir təlxək kimi meydana salanlar onları fəlakətdən-fəlakətə sürükləyən Qarabağ klanı adlı həmin cinayətkar dəstə, revanşistlər, bədbəxtliklərinin "təşkilatçıları" olan daşnaqlardır. Hələ də özünə gələ bilməyən ermənilərin məhz hakimiyyəti ələ keçirmək üçün ortalığa atılanların oyununa gedəcəyinə, onlara inanacağına, arxalanacağına ümid edənlər varsa ilk növbədə özlərini aldadırlar və ardınca da axmaqlıq edirlər.

Həmin bu təlxəyin təlxəklik etdiyi hərəkata hansısa vucdanlı, təmiz bir adam rəhbərlik etsə idi belə, etiraz aksiyalarına çağıran adam "təmiz" birisi olsa idi belə, hansısa canilərin oyunlarını təşkil etmək üçün sifətdənsifətə düşən, dondan-dona girən birinin teatrı, sirk şousu fiaskoya uğramalı idi. Ermənistanda hakimiyyəti ələ keçirmək istəyən hər hansı bir qüvvə, istənilən şəxs, ələlxüsus da keçmiş hakimiyyət, Qarabağ klanı, canilər heç olmasa bunu yadda saxlamalıdırlar, unutmamalıdırlar. Unutmamalıdırlar ki, hansı təlxək, həm də nə şəkildə təlxəklik etsə belə bunun sonu ola bilməz, çünki onların simasını, daha doğrusu simasızlığını haylar çox yaxşı tanıyır, kim olduqlarını da yaxşı bilirlər. Bilirlər ki, başlarına gələn müsibətlərin səbəbkarı da elə məhz onlardırlar. Belə olan halda hansısa nəticəyə ümid etmələrinin axmaqlıqdan başqa bir şey olmadığını söyləməkdə haqlıyıq.

## Paşinyana bir saat vaxt verən Qalstanyan bir həftə keçməsinə baxmayaraq, hələ də həmin "saatın" bitməsini "gözləyir"

Bir məsələni də diqqətə çatdıraq ki, sadalananlardan da əlavə, axı Qalstanyan və onun arxasında duran qüvvələrin etiraz aksiyalarının iştirakçılarının sayını daha da artırmaq üçün heç bir resurs olmayıb. Bəli, İrəvanda keçirilən ilk mitinqdə 20 mindən çox insan iştirak edib. Lakin insanlar tez bir zamanda əmin olublar ki, arxiyepiskop xalqın məhz ardınca getmək istədiyi şəxs deyil. Heç ola da bilməz. Çünki o tamamilə yad və naşıdır. Əvvəla, Qalstanyan həm də çox tutarsız, arqumentsiz, məntiqsiz danışır. Naşı olduğu, yad biri olduğu, təlxəklik edən kimsədən başqa biri olmadığı bununla da dərhal öz təsdiqini tapır. Digər tərəfdən də, gələcək fəaliyyət proqramının konturlarını belə göstərməyən, planı, proqramı olmayan birinə, ancaq hakimiyyət çevrilişinə fokuslanana necə etibar etmək və onun arxasınca getmək olar? Qətiyyən olmaz və olmadı da. Yəni, gözlənilən elə bu idi və nəticə də özlüyündə sadalananları təsdiq etdi.

Sözsüz ki, Baqrat Qalstanyanın təlxəkliyini sübut edən məqamlar olduqca çoxdur və sadaladığımız hallara onun özünü salması özü belə təlxəkliyini sübut edir. Amma daha maraqlı və gülməli məqamı diqqətə çatdırmağın yerinə düşəcəyinə əminik. Beləki, bildiyimiz kimi, etiraz hərəkatının "lideri", yəni Qalstanyan Paşinyana ultimatum irəli sürdüyü zaman özünü daha gülünc vəziyyətə salıb. Yəni, xatırladığımız kimi, erməni baş nazir Nikol Paşinyana istefa vermək üçün bir saat vaxt verən Qalstanyan artıq bir həftə vaxt keçməsinə baxmayaraq, hələ də həmin "saatın" bitməsini "gözləyir". Deməli, belə çıxır ki, onun sözünün mahiyyəti heçə bərabər, "sözünün çəkisi" də öz çəkisindən də çox-çox aşağı imiş və belə biri haqqında erməni cəmiyyəti nə fikirdə olmalı idi axı? Onu bir sirk şousunda təlxək kimi ortaya atanlar da, elə ümumilikdə hayların hamısı da elə qənaətdədir ki, Baqrat Qalstanyan nə qədər atılıb-düşsə belə "bu döyüşü" Paşinyana tamamilə uduzub. Baxmayaraq ki, o bunu etiraf etməkdən imtina edir və bu özü də onun təlxəkliyini sübut edir. Belə görünür ki, nə qədər etiraf etməsə də bu gedişlə yaxında hansısa etiraz aksiyası keçirmək fikrinə düşsə, həmin aksiyada özündən başqa heç kim olmayacaq, çünki belə təlxək cildində olan kimsənin arxasınca heç haylar da düşən deyil

***İnam Hacıyev***

**Uşaqlar hamımızın həssas nöqtəsi, qırmızı xətti, müqəddəsi, toxunulmazıdır. Bizim kimi mühafizəkar cəmiyyətlərdə ikiqat düşkün olur valideynlər övladına. Hamımızın bir arzusu var, övladımız sülh, dinclik və əmin-amanlıq hökm sürən bir dünyada yaşasın.**

# Uşaqlar və sosial təminat: bacarırıqmı?



## Bir uşaq, bir göyərçin

Dünyada sülhün iki simvolu var, biri ağ göyərçinlər, digəri gülümsəyən uşaqlar. Hər ikisi saflığın, təmizliyin, dincliyin simvoludur. Dünyada sabitliyi, dincliyi, sülhü ən çox arzulayan da övladı olan insanlardır. Dünyanın yaşanacaq yer olması üçün, uşaqlarımızın sülh içində böyüməsi üçün bu sabitliyi qorumaq məcburiyyətindəyik. Bəşəriyyətin xoşbəxtliyi uşaqların qorunmasından, onların yaxşı tərbiyə olunmasından asılıdır. Axı bu günün uşaqları sabahın böyükləri, dolayısı ilə idarəçisidirlər. Sülhü təmin etmək üçün bütün dünya uşaqları arasında dostluq əlaqələrini qurmaq, bütün xalqlarının vəhdətini yaratmaq, uşaqlara sülhün nə demək olduğunu anlatmaq lazımdır.







Əslində, valideyniksə, bütün söhbətlərin sonu dönüb-dolaşıb uşaqlara gəlir. Ən vacib qərarlarımız onlar haqqındadır, ən ciddi planlarımız uşaqlarımızın barəsindədir, ən böyük arzularımız onların gələcəyi ilə bağlıdır. Əgər valideyniksə bütün həyatımız özümüzdən nələri isə uşaqlarımıza ayırmaqla keçir - diqqətimizi, qayğımızı, sevgimizi, sağlamlığımızı onlara sərf edirik. Hər uşağın böyüyərkən ehtiyacı olan duyğuları ona ötürmədikdə, yalnız fiziki olaraq böyüyən, ruhən həmişə uşaq qalan insanlarla zəngin cəmiyyət formalaşır. Dolayısı ilə bizim ona verə bilmədiyimizi o da öz övladına verə bilməyəcək.

## Qanun da şahdır, uşaq da

"Uşaq Hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununa və Ailə Məcəlləsinə əsasən, uşağın hüquq və mənafeləri pozulduqda, o cümlədən valideynlər uşağın təhsili və tərbiyəsi ilə bağlı vəzifələrini yerinə yetirmədikdə, uşağın hüquq-mühafizə orqanlarına müraciət etmək hüququ var. Uşaq pozulmuş hüququndan və onun müvafiq prosessual qaydalarından asılı olaraq fərdi qaydada və ya öz təmsilçisi vasitəsilə müraciət edə bilər.

Azərbaycan hökuməti və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi müvafiq sahədə beynəlxalq qurumlarla əməkdaşlıq edir. Bundan əlavə, Azərbaycan əlil uşaqlar, evsiz uşaqları, uşaqlara qarşı zorakılığın qarşısının alınması, erkən nikahlar, uşaq ölümləri, məktəbəqədər təhsil kimi təhsil, səhiyyə və digər sosial məsələlərdə UNICEF ilə sıx əməkdaşlıq edir.

1992-ci ildə Azərbaycanda BMT-nin " Uşaq hüquqları haqqında" Konvensiyası və səkkiz il sonra onun "Uşaqların silahlı münaqişələrə cəlb edilməsi" və "Uşaqların satışı, uşaq fahişəliyi və uşaq pornoqrafiyası" daxil olmaqla iki Fakültativ Protokolu ratifikasiya edilib.

Azərbaycan 1993-cü ildə Birləşmiş Millətlər Təşkilatının Yetkinlik yaşına çatmayanlara dair ədalət mühakiməsinin həyata keçirilməsinə dair Standart Minimum Qaydalarını, 1996-cı ildə Nikahın bağlanmasına razılıq, nikah üçün minimum yaş və nikahların qeydiyyatı haqqında Konvensiyanı, 2004-cü ildə Avropa Sosial Xartiyasını və Ayrı-seçkiliyin aradan qaldırılması haqqında Konvensiyanı və 2006-cı ildə Təhsil Sahəsi üzrə hüquqi sənədləri qəbul edib.

Hökumətimiz, BMT-nin Uşaq Hüquqları Komitəsinə (UNHCR) Konvensiyanın və onun iki Fakültativ Protokolunun həyata keçirilməsi üçün dövri hesabatlar təqdim edir. Bundan əlavə, Azərbaycan "Uşaqların yaşaması, qorunması və inkişafı haqqında" Ümumdünya Bəyannaməsinin tərəflərindən biridir. "Uşaq hüquqlarının müdafiəsi haqqında" da bir sıra milli qanunvericilik aktları təsdiq edilib. Azərbaycan, 1998-ci ildə qanunvericiliyini Uşaq Hüquqları Konvensiyasında (UHK) qeyd olunan prinsiplərə uyğunlaşdıran "Uşaq hüquqları haqqında" qanunu qəbul edib.

## Heydər Əliyev Fondunun uşaqlara diqqəti

2004-cü ilin mayında əsası qoyulmuş Heydər Əliyev Fondu uşaq müəssisələrinin infrastrukturunun inkişafı, uşaq evlərinin və internat məktəblərinin təmiri, körpələr evi və uşaq bağçalarının tikintisi üçün maliyyə vəsaiti ayırmaqla bağlı bir sıra layihələr həyata keçirir. Bundan əlavə, fond valideynlərini itirmiş və uşaq evlərində tərbiyə alan uşaqların, habelə sağlamlıq imkanları məhdud şəxslərin sosial inteqrasiyasına yönəlmiş layihələrin həyata keçirilməsi ilə məşğul olur. "Uşaq evlərinin və uşaq evlərinin inkişafı" proqramı çərçivəsində Fond tərəfindən 34 uşaq müəssisəsi bərpa və avadanlıqla təchiz edilib.

Fond uşaqların dünyagörüşünün genişləndirilməsi məqsədi ilə xarici ölkələrdə keçirilən beynəlxalq müsabiqələrdə onların iştirakını təmin edir, həmçinin digər ölkələrin analoji müəssisələrində tərbiyə alan uşaqların Azərbaycana gəlməsi və ölkəmizlə tanış olması üçün şərait yaradır. Eyni zamanda, Heydər Əliyev Fondu sağlamlıq problemləri olan uşaqların ölkədə və xaricdə sağlamlığına qovuşması üçün zəruri bütün dəstəyi göstərir. Azərbaycanda müalicəsi olmayan körpələrin xaricə göndərilməsi, əməliyyat və müalicə xərclərini də Fond ödəyir.

## Sosial müdafiədə uşaq izi

Azərbaycanda uşaqların müdafiəsi aparılan sosial siyasətin mühüm tərkib hissəsidir və hazırda qanunvericilikdə nəzərdə tutulan kateqoriyalara aid olan uşaqlar sosial təminat sistemi ilə əhatə olunub. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 18 yaşadək əlilliyi olan şəxslər, ailə başçısını itirən, aztəminatlı, ünvanlı sosial yardım alan ailələrdəki uşaqlar, şəhid ailələrinin, müharibə ilə əlaqədar əlilliyi olanların, beşdən çox uşağı olan qadınların, müddətli hərbi xidmət qulluqçularının uşaqları və s. kateqoriyadan olan uşaqlar, habelə 18 yaşadək əlilliyi olan şəxslərə qulluq edənlər, işləyən valideynlərdən üç yaşadək uşaqlara qulluq edənlər, valideyn himayəsindən məhrum uşaqların qəyyumları aylıq sosial ödənişlə təmin edilir. Uşağın anadan olmasına görə isə birdəfəlik müavinət ödənilir.

Nazirliyin 3 ayrı uşaq reabilitasiya müəssisəsi fəaliyyət göstərir. Bu müəssisələrdə uşaqların tibbi, psixoloji, tədris-peşə diaqnostikası təyin edilərək, fərdi reabilitasiya planları əsasında onların tibbi, sosial, tədris-peşə reabilitasiyası işləri aparılır. Şəmkir, Ağcabədi və Quba rayonlarında da Uşaq Reabilitasiya Mərkəzlərinin istifadəyə verilməsi planlaşdırılır.

Təmənnamız, eyni zamanda, uşaqlara uşaqpulu ödənilməsi istiqamətindədir. Bu istiqamətə uzun müddətdir müzakirələr aparılır, sosial yardım kimi təyinatlı müavinət modeli uşaqpulu təyinatında da əlverişli ola bilər. Aztəminatlı ailələrin övladına dövlət öz dəstəyini bu yolla hiss etdirə bilər.

***Lalə Mehralı***

# Əli Kərimli siyasi dialoqdan niyə imtina edir?



Dağıdıcı müxalifətin xalqa, dövlətə zidd siyasət aparması dəyişməz olaraq qalır. Daha doğrusu, dağıdıcı müxalifət təxribatlar yaratmaq, pozuculuq aktları törətmək kimi əməllərindən əl çəkmir. Əksinə, daha geniş formada məkrli niyyətini həyata keçirməyə cəhdlər göstərir. Hətta o dərəcədə dağıdıcı siyasətə aludə olublar ki, sosial şəbəkələrdə dövlətçilik maraqlarına uyğun statuslar yazan, videolar paylaşanları hədəfə alıb, onları təhqir edir, haqlarında min cür ittihamlar irəli sürürlər. Vəziyyət o həddə çatıb ki, səhv yoldan dönüb, konstruktiv siyasətə meyil göstərən siyasilər də Əli Kərimlinin və ətrafında olan trolların hədəfinə çevrilir. Xüsusilə də, Müsavat partiyasının mayın 16-da Prezident Administrasiyası tərəfindən Milli Məclis Aparatının, Mərkəzi Seçki Komissiyasının, Hesablama Palatasının, Ədliyyə və Maliyyə nazirliklərinin, habelə 25 siyasi partiyanın nümayəndələrinin iştirakı ilə keçirilən görüşdə iştirak etməsi Əli Kərimli və trollarının Arif Hacılıya, İsa Qəmbərə, Gülağa Aslanlıya və digərlərinə qarşı ittiham irəli sürmələrinə fürsət yaradıb. Ə.Kərimlinin başıpozuq dəstəsi Müsavat funksionerlərini satqınlıqda, hakimiyyətlə işbirliyində və müxalifətçilikdən imtina etməkdə günahlandırırlar. Halbuki, bu görüş siyasi partiyalarla dövlət orqanları arasında konstruktiv əməkdaşlığın qurulmasına və inkişaf etdirilməsinə xidmət edən görüş idi. Həm də nəzərə almaq lazımdır ki, dəfələrlə ölkə Prezidenti, Fateh Sərkərdə İlham Əliyev siyasi partiyalarla konstruktiv dialoqun qurulmasının vacibliyini bildirmiş və bu istiqamətdə vacib və əhəmiyyətli addımlar atıb. 2021-ci il martın 5- də keçirilən Yeni Azərbaycan Partiyasının qurultayında Prezident İlham Əliyev siyasi dialoqun inkişafı dövlət siyasətinin prioritet fəaliyyət istiqamətlərindən biri olduğunu bildirdi: "Siyasi partiyaların fəaliyyəti, demokratiyanın inkişafı, iqtisadi azadlıqların bərqərar olması, ölkəmizin güclənməsi qarşımızda duran vacib məsələlərdir. Bu gün ölkəmizdə siyasi dialoq aparılır. Bu, çox təqdirəlayiqdir. Ölkəmizin gələcək siyasi sistemi üçün, siyasi sisteminin təkmilləşməsi üçün bunun böyük əhəmiyyəti var". Mayın 16-da keçirilən görüş siyasi partiyaların dövlət orqanları ilə əlaqələrinin daha geniş və səmərəli qurulmasına və inkişaf etdirilməsinə mühüm töhvə idi.

## Siyasi dialoq əlaqələrin inkişafına yeni töhfədir

Görüşdə Yeni Azərbaycan Partiyası, Vətəndaş Həmrəyliyi Partiyası, Ana Vətən Partiyası, Ədalət, Hüquq, Demokratiya Partiyası, Böyük Quruluş Partiyası, Demokratik İslahatlar Partiyası,Vəhdət Partiyası, Azərbaycan Demokratik Maarifçilik Partiyası, Milli Cəbhə Partiyası, REAL Partiyası, Haqq Ədalət Partiyası, Azərbaycan Milli İstiqlal Partiyası, Azərbaycan Ümid Partiyası, Azərbaycan Demokrat Partiyası, Azərbaycan Xalq Partiyası, Böyük Azərbaycan Partiyası, Ədalət Partiyası, Klassik Xalq Cəbhəsi Partiyası, Milli Dirçəliş Hərəkatı Partiyası, AĞ Partiyası, Azad Vətən Partiyası, Müasir Müsavat Partiyası, Gələcək Azərbaycan Partiyası, Yeni Zaman Partiyası və Müsavat Partiyası iştirak ediblər. İştirakçıların hər biri görüşlə bağlı müsbət fikirlər ifadə etmiş və belə təmasların vaxtaşırı aparılmasının vacibliyini söyləmişlər. Əli Kərimli isə çoxluğun əsaslı mövqeyinin əksinə olaraq sərsəm yanaşmalar ifadə edir. Trolları sosial şəbəkələri zəbt edərək görüşdə iştirak edənləri xəyanətkar adlandırırlar. Görünən ondan ibarətdir ki, siyasi partiyalar arasında daha çox hədəfdə Müsavat partiyasıdır. Ə.Kərimli Müsavatı gözdən salmaq və yeni başqan İsa Qəmbəri ləkələmək üçün hər cür vasitə və üsullardan istifadə edir. Hətta həbsdə olan müsavatçı Tofiq Yaqublu vasitəsi ilə İ.Qəmbəri təhqir etdirməkdən belə çəkinmir. Tez-tez sosial şəbəkələrdə paylaşımlar edirlər ki, guya T.Yaqublu Müsavat partiyasının siyasi partiyaların dövlət orqanları ilə keçirilən görüşünə qatılmasından qəzəblənib və qəzəbinin detallarını nümayəndəsi vasitəsi ilə İ.Qəmbərə çatdırıb. AXCP sədr müavini Seymur Həzi T.Yaqublunun nümayəndəsinin təhrif olunmuş fikirləri əsasında paylaşdığı statusunda qeyd edir ki, T.Yaqublu Prezident Administrasiyasının siyasi partiyalarla təşkil etdiyi məlum görüşdə Müsavar Partiyasının iştirakını televizorda izləyib. S.Həzi yazır ki, T.Yaqublu kadrları seyr etdikdən sonra bu qənaətə gəlib ki, Müsavat partiyası həqiqi müxalif mövqeyindən uzaqlaşmağa başlayıb.

## Əgər Ə.Kərimli həyasızlıq edib görüşə qatılmağa cəsarət etsə idi, siyasi partiyalar ona etiraz edər və zaldan qovulmasını tələb edərdilər

AXCP-nin digər müavini F.Qəhrəmanlı isə sərsəm ifadələrlə çıxış edir. Deyir ki, "AXCP-siz görüs nə deməkdir?". Bu məxluq anlamır ki, AXCP-siz görüşün keçirilməsi facie deyil. Əksinə, siyasi partiyalara, ümumilikdə cəmiyyətə rahatlıq gətirir. Çünki cəmiyyət sual edə bilərdi ki, satqın və xəyanət yolu tutan AXCP hansı haqla siyasi dialoqun iştirakçısı olur? Digər tərəfdən düşünmürəm ki, siyasi partiya funksionerləri AXCP kimi Fransa casus şəbəkəsinə yardımçı olan, "PKK"-nın əsas ideoloqlarından olan Səlahəddin Demirtajla əməkdaşlıq edən bir şər yuvasının aralarında görmələrini arzu etsinlər. Əminliklə o fikri vurğulamaq olar ki, əgər Ə.Kərimli həyasızlıq edib görüşə qatılmağa cəsarət etsə idi, siyasi partiyalar ona etiraz edər və zaldan qovulmasını tələb edərdilər. Bu baxımdan yaxşı ki, AXCP görüşə qatılmadı və bu da görüşdə siyasi partiyalarla dövlət orqanlarının təmsilçiləri arasında konstruktiv müzakirələrin aparılmasına və sonda hər kəsi məmnun edəcək qərarın qəbul edilməsinə imkanlar yaratdı.

***İLHAM ƏLİYEV***

# "Paşinyan açıq şəkildə Rusiya əleyhinə siyasət yeridir"



"Dünyada böyük dövlətlərin savaşı gedir". Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert, Strateji Planlaşdırma və Araşdırmalar İnstitutunun rəhbəri, politoloq Azad Məsiyev deyib.O bildirib ki, Rusiya ilə Birləşmiş Ştatlar arasında savaş var: "Bu savaşın birinci episentri Ukraynadırsa, ikinci episentri Cənubi Qafqazdır. Artıq Birləşmiş Ştatlar və NATO bloku Rusiyanı düşmən elan edib və siyasi səhnədən silmək istəyir. Ona görə Rusiyanın sərhədlərində qaynar ocaqlar, münaqişə ocaqları yaratmaqla Rusiyanı təkləyib və onu münaqişəyə cəlb etməklə zəiflətmək istəyir. Təbiidir ki, Birləşmiş Ştatlar Cənubi Qafqazı öz təsirinə alıb Rusiyanın cənub cinahını bağlamaq niyyətindədir. Ona görə Gürcüstan və Ermənistanda baş verən hadisələrə qlobal güclərin Rusiya ilə Birləşmiş Ştatların arasında gedən savaşın tərkib hissəsi kimi baxmaq lazımdır. Birləşmiş Ştatlar demokratiya ideyası altında müxtəlif dövlətlərdə dövlət çevrilişi edir və dövlətləri öz təsirinə salaraq Rusiya əleyhinə istifadə edir. Gürcüstan, Ukrayna və Ermənistan bu demokratiya ideyası altında dövlət çevrilişi edib və Rusiya əleyhinə istifadə edilən dövlətlərdən olub.Saakaşvili Soros fondunun maliyyə dəstəyi və Birləşmiş Ştatların diplomatik dəstəyi ilə hakimiyyətə gəldi, Rusiya əleyhinə istifadə olundu. O cümlədən də Ermənistanda da həmin ssenari həyata keçirilir. İndiki Gürcüstan hakimiyyəti Gürcüstanın hakim zümrəsi çalışır ki, daha müstəqil və balanslaşdırıcı siyasət həyata keçirsin. Gürcüstanda baş verən hadisələr Birləşmiş Ştatların maraq dairəsində deyil. O baxımdan Gürcüstanda hakimiyyəti devirib özlərinə münasib olan hakimiyyəti qurmaq istəyirlər. Bundan da Rusiya əleyhinə istifadə etmək istəyirlər.




Hazırda Gürcüstan hakimiyyəti çalışır ki, dövlət və xalqın maraqlarını nəzərə alaraq daha suveren, müstəqil siyasət həyata keçirsin. Bu baxımdan Agentlər haqqında qanun layihəsini qəbul etməklə xarici dövlətlərin Gürcüstanın daxili işlərinə müdaxiləsinə yol verməmək üçün bu qanunu qəbul etməkdə maraqlıdır. Qərb, başda Birləşmiş Ştatlar olmaqla bu qanunun qəbul edilməsindən narahatdır. Qanun qəbul edilərsə, Qərb Gürcüstanın daxili işlərinə müdaxilə etməkdə çətinlik çəkəcək. Çünki Birləşmiş Ştatlar və Qərb QHT-lər vasitəsilə siyasi partiyalar və bəzi kütləvi informasiyaları qrant layihələri vasitəsilə öz təsirinə salır. Bundan öz məqsədləri üçün istifadə edir. Müxtəlif qeyri-hökumət təşkilatları, siyasi partiyaları maliyyələşdirməklə həmin qüvvələrin sosial bazasından öz məqsədləri üçün alət kimi istifadə edir. Bu baxımdan qəbul ediləcək qanun Gürcüstanı daha müstəqil siyasət yeritməyə əsas olacaq. Birləşmiş Ştatlar və Qərb Gürcüstana təzyiqlər edir. Gürcüstan sanksiyalarla hədələnir. Hesab edirəm ki, Birləşmiş Ştatlar Gürcüstanda dövlət çevrilişi etmək niyyətindədir. Bildiyimiz kimi oktyabr ayında Gürcüstanda seçkilər olacaq. İndiki proseslər də seçkilərə təsir etmək üçün aparılan mübarizənin tərkib hissəsidir"."Ermənistanda isə proses fərqlidir. Paşinyan Soros fondunun, Birləşmiş Ştatların dəstəyi ilə hakimiyyətə gəldi. Paşinyan faktiki olaraq Birləşmiş Ştatların əlində bir alətdir. Son vaxtlar Paşinyan bir qədər yumşaldıcı siyasət həyata keçirir. Bu isə Qərbin maraq dairəsində deyil. Çünki Qərb radikal Paşinyan istəyir. Birləşmiş Ştatlar və Qərb Paşinyan hakimiyyətə gətirilən zaman onun qarşısında bir məsələ qoyub ki, Rusiyanın təsir dairəsini Ermənistanda zəiflətsin. Bu baxımdan Paşinyan açıq şəkildə Rusiya əleyhinə siyasət yeridir. Reallıq ondan ibarətdir ki, Rusiyanın Ermənistana həm iqtisadi, siyasi, həm də hərbi baxımdan təsir etmək imkanı var. Paşinyan da bunu yaxşı bilir, siyasətini yumşaltmağa çalışır. Bu isə Qərbin maraq dairəsində deyil. Qərb Azərbaycanla Ermənistan arasında sülhün əldə edilməsində maraqlı deyil.

Sülh olarsa, Qərbin Cənubi Qafqaza girməsi real olmur. Çünki Cənubi Qafqazda aparıcı dövlət Azərbaycandır. Rusiyanın da cənub cinahının bağlanması üçün mütləq şəkildə Birləşmiş Ştatlar və Qərb çalışır ki, Azərbaycanı öz təsirlərinə salsınlar. Azərbaycan isə dövlət və milli maraqlarını nəzərə alaraq balanslaşdırıcı siyasət yeridir. Böyük dövlətlərin əlində alətə çevrilmir, Qoşulmama Hərəkatının üzvüdür. Heç bir hərbi bloka qoşulmur və həm şimal, cənub, həm şərq, qərblə siyasətini, münasibətlərini balanslaşdırır.Qərb çalışır ki, Ermənistan-Azərbaycan arasında şərti sərhəddə münaqişə yaratsın. Bu gərginlik fonunda Qərbin beynəlxalq sülhməramlı qüvvələri adı altında öz kontingentini Ermənistanda yeritsin və güclənsin. Ümumilikdə Birləşmiş Ştatların Cənubi Qafqazda strategiyası bundan ibarətdir ki, üç Cənubi Qafqaz Respublikalarını öz təsir dairəsinə salaraq Rusiyanın cənub cinahını bağlasın. Rusiya da dövlət və milli maraqlarını nəzərə alaraq ona uyğun adekvat siyasət həyata keçirmək istəyir. Xüsusilə, Cənubi Qafqazda aparıcı dövlət Azərbaycan olduğu üçün bütün böyük güclərin maraqlarını balanslaşdıran Azərbaycandır. Qərb isə çalışır ki, Azərbaycanı təsirinə salsın. Həm Rusiya əleyhinə, həm də İran əleyhinə istifadə etmək istəyir. Təbii ki, Azərbaycan da qonşularla dinc yaşamaq prinsipini həmişə meyar tutub. Qonşularla düşmənçilik siyasətinə getmir və üçüncü dövlətə Azərbaycan üzərindən Rusiya və İran əleyhinə fəaliyyət göstərilməsinə razılıq vermir. Bu baxımdan Qərb çalışır ki, Ermənistan üzərindən Azərbaycana təzyiq etsin.Hazırda Ermənistanda baş verən etiraz aksiyaları isə ilk baxışdan belə bir görüntü yaradır ki, Ermənistanda baş verən etirazların izləri Rusiyaya yönəlir. Qərb etirazları Paşinyanın üzərinə qaldırmaqla Paşinyana təzyiq edir.

Əgər Paşinyan Rusiya, Azərbaycanla münasibətində yumşaldıcı siyasət həyata keçirərsə, bu zaman başda Birləşmiş Ştatlar olmaqla Qərb Paşinyanı hakimiyyətdən devirib daha radikal qüvvələri hakimiyyətə gətirəcək. Ermənistanda kilsənin himayəsi altında qalxan etirazlar isə Paşinyana qarşı Qərbin təzyiqidir. Çünki kilsə dövlət içində bir dövlətdir. Kilsə erməni ideologiyasını formalaşdıran erməni cəmiyyətini yönəldən, qəbul edilmiş ideologiyanı həyata keçirmək üçün lazım gəldikdə terroru himayə edən bir mərkəzə çevrilib. Paşinyanın son vaxtlar apardığı siyasət kilsənin də maraqlarına ziddir. Ona görə etirazlar Paşinyana açıq təzyiqdir.Azərbaycan-Ermənistan arasında sülhün əldə edilməsi üçün Rusiya daha çox maraqlıdır. Ona görə ki, Rusiyanın Avropa ilə əlaqəsi kəsilib. Rusiyanın beynəlxalq aləmə, Azərbaycan üzərindən İrana, Türkiyəyə və Afrika coğrafiyasına çıxması üçün mütləq Cənubi Qafqazda stabillik olmalıdır. Əgər Ermənistan-Azərbaycan arasında sülh olarsa, Qərbin Cənubi Qafqaza girməsi reallaşmır. Çünki Qərb münaqişə yaratmaqla öz siyasətini həyata keçirir. Ümumiyyətlə, Cənubi Qafqaz uğrunda savaş var" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# Heyvanların vəfası insanları utandırır



Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə Uşaq və gənclərin fiziki və mənəvi inkişafı istiqaməti çərçivəsində hazırlanıb









***Heyvanlarla qurulan dostluq və yoldaşlıq münasibətləri çox vaxt qarşılıqlı sevgi üzərində qurulur. Bu dilsiz-ağızsız canlılarla ünsiyyət müasir dövrün ən çox yayılan problemlərindən biri olan stres faktorunun aradan qaldırılmasına kömək edir. Onları qucaqlamaq, sığallamaq, ünsiyyət insanın tənhalıq hissini azaldır, mərhəmət və sevgi duyğularını inkişaf etdirir.***

Təbiət etibarilə insan həyatının ilk anlarından başqa canlılarla bağ qurmağa ehtiyac duyur və bu bağlanma prosesi bütün ömür boyu davam edir. İnsan sosial varlıqdır, biz yaşamaq üçün başqa insanlara və canlılara ehtiyac duyuruq. Bu bağlar və əlaqələr insanların ünsiyyətcilliyini və həyat keyfiyyətini artırır. Məlumdur ki, insanlar bağlı olduqları insanlardan ayrıldıqda narahatlıq, kədər, təşviş kimi hisslər yaşayırlar. Düşünün, övladımız əsgər gedəndə, ailə qurub evdən başqa evə köçəndə hansı hissləri keçiririk? Bu eynilə heyvanlarla münasibətlərimizdə də belədir. İnsanlar emosional olaraq bağlı olduqları ev heyvanlarından ayrıldıqda kədər, narahatlıq hiss edirlər. Bənzər vəziyyət ev heyvanları üçün də keçərlidir. Onlar da insanlar kimi, sahiblərindən ayrıldıqda narahatlıq və kədər hiss edirlər. İnsanlarla ev heyvanları arasında qurulan bu bağlılıq qarşılıqlı ehtiyaca əsaslanır və bir-birini tamamlayır.

İnsan digər canlılardan fərqli olaraq özündən fərqli canlılarla da empatiya qura bilir. Biz heyvanın nə hiss etdiyini anlaya, kədərləndə, sevinəndə göstərdiyi reaksiyanı könüldən duya bilirik. Heyvanların dili yoxdur, buna görə də insanların onları anlamaq üçün müxtəlif bacarıqları inkişaf edib. Lakin empatiya qabiliyyəti olmayan insanlar üçün heyvan ehtiyaclarını və istəklərini anlamaq çox çətindir.

Bir heyvanla dostlaşdıqdan, onunla eyni evdə yaşamağa başladıqdan sonra insanlar ev heyvanı ilə ünsiyyət qurmağa və onun istəklərini başa düşməyə çalışırlar. Öz aralarında ortaq dil yaradırlar desək, yanılmarıq. Bu ünsiyyət üsulu insanın empatiya qabiliyyətinin inkişafına səbəb olur. Evdəki canlıya empatiya ilə yanaşan adam bütün cəmiyyətə, insalara, başqa canlılara empatiya ilə yanaşacaq. Araşdırmalar nəticəsində uşaqların heyvanlarla qurduğu ünsiyyətin onlarda emosional inkişafı yüksəltdiyi sübut edilib. Uşaqların heyvanlarla qurduğu bu görünməz bağ onların empatiya hissinin inkişafında mühüm rol oynayır.

Stres və narahatlıq günümüzdə çox rastlaşdığımız vəziyyətdir. Tədqiqatlar göstərir ki, ev heyvanları ilə ünsiyyət hətta heyvan sevməyən insanlar üçün də rahatlıq təmin edir. Bunun da səbəbi heyvanları sığallayan, onlarla üsniyyətdə olan insanlarda oksitosin hormonunun səviyyəsinin dəyişməsidir. Oksitosin insan orqanizmində rahatlıq yaradır və stressdən arınmağa kömək edir. Ünsiyyət üçün ev heyvanının olması şərt deyil, küçədəki hər hansı bir canlı da eyni effekti verir.

Heyvanlarla ünsiyyətdə olmaq insanın fiziki göstəricilərinə təsir edir, ilk təmas ürək döyüntülərini qaydasına salır, nəfəs alıb-verməni tənzimləyir, stressi azaldır. Ev heyvanları da insanların sosial mühitdən təcrid olunmasının qarşısını alır. Hər gün itini və ya pişiyini gəzintiyə çıxaran insanlar yeni dostluqlar qurur, sosial çevrəsi genişlənir.

Küçədəki sahibsiz itlərin insanlara hücumu, yaralaması kimi hallarda çıxış yolu olaraq onların toplanması, sığınacaqlara aparılması təklif edilir. Doğrudur, küçələrdəki itlərin bir çoxu real təhlükə mənbəyidir və insanlara qarşı hədə ehtiva edir. İstənilən inkişaf etmiş ölkədə heyvan həyatı insan həyatından qiymətli deyil. Belə ölkələrdə küçələrdə sahibsiz heyvanları görmək olmur. Çünki bu heyvanların yeri, onların soyuqdan donub öldüyü, maşın altında qaldığı, xəstəliyə yoluxub öldüyü, insanlara hücum etdiyi küçələr deyil.

Lakin heyvan hücumlarının bir çoxunun arxasında gözdən qaçırılan, diqqət edilməyən bir xırdalıq var. Heyvanlar nə zaman hücum edir? Özlərinə qarşı bir təhlükə görəndə. Bəs təhlükə nədir? Uşaqların atdığı daş, əllərindəki dəyənək. Etiraf edək ki, uşaqlar bəzən heyvanlara qarşı amansız ola, onu daşla, dəyənəklə vura və qısnaya bilirlər. Xüsusilə böyüklər tərəfindən heyvana mərhəmət hissi öyrədilməyən, küçə heyvanlarına zərər verməyin nələrə səbəb ola biləcəyi barədə məlumatlandırılmayan uşaqlar çoxdur. Heyvan müdafiəçiləri iddia edir ki, əgər uşağa sahibsiz heyvanlara sevgi ilə yanaşmaq öyrədilsə bu cür hallar baş verməz. Çünki fitrən heç bir heyvanda, insanlara qarşı nifrət və ya aqressiya yoxdur.

Heyvanlar, onlara göstərilən münasibətə uyğun reaksiya verir. Məsələn, daim küçədə zorakılıq görən və ya insanlar tərəfindən şiddətə məruz qalan bir itin, insanlara aqressiv reaksiya verməsi normaldır. Eləcə də, daim başı sığallanan, şəfqət görən itin insanlara qarşı yumşaq davrandığı müşahidə edilir. Lakin tarix və hadisələr, sahibini parçalayaraq yeyən itlərin olduğunu da göstərir. Heyvan müdafiəçiləri deyir ki, küçə itlərinə yaxınlaşmazdan əvvəl ona icazə verin sizi qoxulasın, ona sizi tanıması üçün imkan yaradın. Heyvanlar yemək yeyərkən onu narahat edə biləcək hərəkət olarsa aqressiv reaksiya verə, yaxınlaşan insana hücum edə bilərlər.

Heyvanlar unutmurlar - nə pisliyi, nə də yaxşılığı. Tarixdə, ədəbiyyatda, kinomatoqrafiyada bunun çox sayda nümunəsi var. Ən tanış nümunələrdən olan real hadisələr əsasında çəkilmiş ”Haçikonun taleyi”, ”Qaraqulaq ağ Bim” filmləridir. Hər iki film kino tarixinin heyvan vəfası haqında yaratdığı şedevrlərdir.

**_Lalə Mehralı_**

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# "Ailədə dəyişməyən qaydalar olmalıdır"



"Təəssüf ki, ailə dəyərləri zamanla dəyişə bilər". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan filosofu, pedaqoq, fəlsəfə üzrə fəlsəfə doktoru, sosioloq Mail Yaqub deyib. Sosioloq bildirib ki, halbuki ailələrdə dəyişməyən qaydalar olmalıdır: "Yəni prinsipcə ailədə dəyişməyən qaydalar olmalıdır. Məsələn, ailədə valideyn övladına qarşı sevgi göstərməlidir. Prinsip, qayda bunu deyir. Ailədə qarşılıqlı hörmət, ehtiram olmalıdır. Valideyn övladına, övlad da valideyninə qarşı hörmət, ehtiramla yanaşmalıdır. Ailədə hamı bir-birinə dəstək olmalıdır.

İndividualizm qadağandır. Yəni ailədə hamının özünü düşünməsi qadağandır, olmaz. Hamı birlikdə ailənin mənafeyini düşünməlidir. Bütün bu qaydalar dəyişməməlidir. Amma, təəssüf ki, müəyyən zaman keçdikcə bu qaydalar alt-üst olur. Bəzi ailələrdə bu qaydalar dəyişir. Qaydalar dəyişən vaxt isə ailələrdə böyük problemlər yaranır. Valideyn-övlad arasında, valideynlərin bir-biri ilə münasibətlərində və sair problemlər yaranır. "Bunları aradan qaldırmaq üçün nə etməliyik?" dedikdə dayanmadan həmin qaydaları, dəyərləri bütün platformalarda təbliğ etmək, izah etmək lazımdır".

*Söylü Ağazadə*

## Tabor komandiri rüşvətə görə məhkəmə zalında həbs edildi



Müdafiə Nazirliyinin hərbi-hissəsinin rüşvət almaqda və mənimsəmədə təqsirləndirilən sabiq tabor komandiri Elnur Əliyev həbs edilib. SİA xəbər verir ki, bu barədə Bakı Hərbi Məhkəməsi qərar qəbul edib. Hakim Rafiq Abbasovun sədrliyi ilə keçirilən məhkəmə prosesində hökm elan edilib. Hökmə əsasən, istintaq dövründə barəsində həbs qətimkan tədbiri seçilməmiş Elnur Əliyev 5 il müddətə azadlıqdan məhrum edilib. O, məhkəmə zalında həbs edilib. Hökmdə, həmçinin ittiham olunduğu mənimsəmə epizodu üzrə ona cəza təyin edilməyib. Həmin hissə hökmdən xaric edilib.

Qeyd edək ki, Elnur Əliyevə Cinayət Məcəlləsinin 311.2-ci (vəzifəli şəxs tərəfindən qanunsuz hərəkətlərə görə rüşvət alma) maddəsindən əlavə eyni məcəllənin 179.1-ci (mənimsəmə və ya israf etmə) maddəsi ilə ittiham verilib.

## Podolski kababçı kafelərindən 180 milyon avro qazanıb

"Qalatasaray" klubunun keçmiş ulduzu Lukas Podolskinin sahib olduğu kabab məkanları ona 180 milyon avro qazandırıb. SİA xəbər verir ki, almaniyalı keçmiş futbolçu Belçika və Polşada açdığı kababçı kafelərindən əldə etdiyi sərvət 180 milyon avroya çatıb. Lukas Podolski bu qazancını Türkiyəyə borclu olduğunu bildirib. "Qalatasaray"da çıxış etdiyim müddət ərzində kabab və dönərlərin dadına baxdım. Daha sonra isə Polşa və Belçikada bu sahə ilə məşğul olmaq istədim. Hazırda nə qədər doğru qərar verdiyimi görürəm".

Qeyd edək ki, Lukas Podolski 2015-ci ildən 2017-ci ilədək "Qalatasaray" klubunun şərəfini qoruyub, 52 oyunda 20 qol vurub.




## Körpə 6 ay müddətində yalnız ana südü ilə qidalanmalıdır



**"Alimlər təsdiq ediblər ki, ana 2 il körpəsinə süd verməlidir. Körpə 6 ay müddətində yalnız ana südü ilə qidalanmalıdır. Yalnız 6 aydan sonra ana südü ilə yanaşı, südü kəsməmək şərti ilə əlavə qidalar da verilə bilər". AZƏRTAC xəbər verir ki, bu fikirləri Səhiyyə Nazirliyinin rəsmi instaqram hesabındakı canlı yayım zamanı nazirliyin Səhiyyə siyasəti şöbəsinin Ana və uşaqların sağlamlığının qorunması sektorunun müdiri Aynurə Zeynalova açıqlayıb.**

Onun sözlərinə görə, doğuşdan sonra yaranan ilk ana südü "kolostrum" və ya "ağız südü" adlanır: "Doğuşdan sonra yaranan ilk süd körpələrin ilk günlərində həzm sistemini təmizləmə təsirinə malikdir. Bu da sarılıq kimi ağırlaşmaların riskini azaltmağa, həmçinin körpələri infeksiya və xəstəliklərdən qorumağa kömək edir. Doğuşdan sonrakı ilk verilən süd qidalandırıcı və immuniteti gücləndirən xüsusiyyətləri ilə yanaşı, analar və körpələr arasında güclü bir əlaqə qurmağa da kömək edir. Bu səbəbdən ilk 6 ay uşaq yalnız ana südü almalıdır, 2 yaşına qədər isə ana südü almağı məsləhətdir. Uzunmüddətli südvermənin uşağa psixoloji olaraq heç bir mənfi təsiri yoxdur".

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3200